

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir


# SƏS

№ 239 (7164)

26 dekabr 2024-cü il.
Qiymәti 60 qәpik


## Dekabrın 26-da Azərbaycanda matəm elan edilib



2

# "Təyyarə qəzası ilə bağlı məsələ tam araşdırılmalıdır"



2

## Prezident İlham Əliyev təyyarə qəzası ilə bağlı müşavirə keçirib

# Ölkəsini tənəzzülə aparan UĞURSUZ




4

## Təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının iclası keçirilib



6

## Gəncə şəhəri MDB Oyunlarının mərkəzi olacaq




7

## XANKƏNDİ -Xanın kəndi azadlığın işığında



10

## "TikTok"da çirkli pullar necə "yuyulur"?



16

## "Minimum pensiyada 3 dəfəyədək artıma nail olunub"



14

# “Təyyarə qəzası ilə bağlı məsələ tam araşdırılmalıdır”

## Prezident İlham Əliyev təyyarə qəzası ilə bağlı müşavirə keçirib



Xəbər verdiyimiz kimi, Sankt-Peterburq şəhərində keçiriləcək MDB üzv ölkələri dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşündə iştirak etmək üçün Rusiya Federasiyasına səfərə yola düşən Prezident İlham Əliyevə Rusiya hava məkanında olarkən baş vermiş təyyarə qəzası haqqında məruzə edilib və dövlətimizin başçısı dərhal geri dönmək barədə tapşırıq verib. AZƏRTAC xəbər verir ki, təyyarə endikdən dərhal sonra Prezident İlham Əliyev hadisə ilə bağlı Heydər Əliyev Beynəlxalq Aeroportunda müşavirə keçirib. Dövlətimizin başçısı müşavirədə çıxış edərək deyib:

-Təyyarə qəzasında həlak olanlara Allahdan rəhmət diləyirəm. Onların ailələrinə, yaxınlarına Allahdan səbir diləyirəm, başsağlığı verirəm. Bu, böyük faciədir, Azərbaycan xalqına böyük facię üz vermişdir.

Mən bu gün səhər MDB Zirvə görüşündə iştirak etmək üçün Bakıdan Sankt-Peterburqa təyyarə ilə uçurdum və uçuş zamanı bu qəza ilə, bu faciə ilə bağlı mənə məlumat verildi. Dərhal göstəriş verdim və təyyarə geriyə - Bakıya döndü. Hələ havada ikən mənim tərəfimdən müvafiq göstərişlər verildi, Baş nazirlə danışdım, onun rəhbərliyi ilə komissiya yaradıldı. Eyni zamanda, Azərbaycan nümayəndələrindən ibarət heyət qəzanın baş verdiyi Aktau şəhərinə ezam edilmişdir. Əlavə göstəriş verildi ki, Azərbaycan həkimlərindən ibarət briqadalar da Aktau şəhərinə tezliklə ezam olunsun.

Komissiyanın işi məsələni tam araşdırmaqdır, qəzanın səbəblərini və bütün təfərrüatlarını araşdırıb həm mənə, həm də Azərbaycan ictimaiyyətinə məlumat verməlidir. Mənə verilən məlumata görə, Bakı-Qroznı marşrutu ilə hərəkət edən AZAL şirkətinə məxsus təyyarə havanın pisləşməsi ucbatından istiqamətini dəyişmiş və Aktau hava limanına tərəf uçmağa başlamış, eniş zamanı qəza baş vermişdir. Mediada, sosial şəbəkələrdə təyyarənin qəzaya uğraması anları mövcuddur. Ona görə onu hər kəs görə bilər. Ancaq qəzanın səbəbləri bizə bəlli deyil. Müxtəlif versiyalar var. Hesab edirəm ki, hələ bu barədə danışmaq tezdir. Məsələ tam araşdırılmalıdır. Baş Prokurorluq tərəfindən cinayət işi açılmışdır və təbii olaraq, Azərbaycan ictimaiyyəti həm komissiyanın işinin nəticələri, həm də cinayət işinin gedişatı ilə bağlı müntəzəm olaraq məlumatlandırılacaq.

Qəzada həlak olanların və onların yaxınlarının acısını çəkərək, həlak olanlara Allahdan bir daha rəhmət, yaralananlara şəfa, həlak olanların, yaralananların yaxınlarına, doğmalarına səbir diləyirəm. Sağ olun.



## Dünya liderləri təyyarə qəzası ilə əlaqədar Azərbaycana başsağlığı verirlər

Dünya liderləri AZAL-ın Bakı-Qroznı reysini həyata keçirən təyyarəsinin qəzaya uğraması ilə əlaqədar Azərbaycana başsağlığı verirlər. AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, Serbiya Prezidenti Aleksandar Vuçiç, Qırğızıstan Prezidenti Sadır Japarov, Tacikistan Prezidenti Emoməli Rəhmon, Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayev, Belarus Prezidenti Aleksandr Lukaşenko, İran Prezidenti Məsud Pezeşkian, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev, Pakistanın Baş naziri Şahbaz Şərif, Moldova Prezidenti Maya Sandu, Rusiya Prezidenti Vladimir Putin, İsrail Dövlətinin Prezidenti İsxak Hersoq, Şimali Kipr Türk Respublikasının Prezidenti Ersin Tatar, Rusiya Federasiyasının Dağıstan Respublikasının rəhbəri Sergey Məlikov, Türk Dövlətləri Təşkilatı, bir sıra dövlətlərin və hökumətlərin rəsmiləri, Xarici İşlər nazirlikləri, həmçinin Azərbaycandakı səfirliklər, beynəlxalq təşkilatların rəhbər şəxsləri və nümayəndələri təyyarə qəzası nəticəsində həlak olanların ailələrinə və yaxınlarına başsağlığı verib, yaralıların tezliklə sağalmalarını diləyiblər.

## Dekabrın 26-da Azərbaycanda matəm elan edilib



Dekabrın 25-də Bakı-Qroznı reysini yerinə yetirən ”Embraer 190” tipli sərnişin təyyarəsinin qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar dekabrın 26-da Azərbaycanda matəm elan edilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb.

# Xarici İşlər Nazirliyi AZAL-ın təyyarəsinin qəzaya uğraması ilə bağlı məlumat yayıb

***Xarici İşlər Nazirliyi AZAL-ın təyyarəsinin qəzaya uğraması ilə bağlı məlumat yayıb. AZƏRTAC məlumatı təqdim edir: Dekabrın 25-də ”Azərbaycan Hava Yolları” aviaşirkətinə məxsus J2-8243 nömrəli Bakı-Qroznı reysini yerinə yetirən ”Embraer 190” təyyarəsi təcili eniş zərurəti ilə əlaqədar Aktau şəhəri istiqamətinə yön alaraq, Aktau şəhəri yaxınlığında qəzaya uğrayıb. Qəzanın səbəbləri araşdırılır. Göyərtədə 62 sərnişin, 5 ekipaj üzvü olmaqla, ümumilikdə, 67 nəfər olub.***

İlkin məlumata əsasən, 32 nəfərin sağ qaldığı müəyyən edilib. Aralarında vəziyyəti ağır olanlar var. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, təyyarə qəzasının səbəblərinin araşdırılması üçün Baş nazir Əli Əsədovun sədrliyi ilə dövlət komissiyası yaradılıb. Azərbaycan Respublikasının Prezidentinin tapşırığına uyğun olaraq, faciəvi qəza ilə əlaqədar Azərbaycan Respublikasının fövqəladə hallar naziri, eləcə də rəqəmsal inkişaf və nəqliyyat nazirinin rəhbərlik etdiyi heyət Qazaxıstana yola düşüb.



Qəza ilə əlaqədar ilk andan Azərbaycan Respublikasının Aktau şəhərindəki Baş Konsulluğu hadisə yerində fəaliyyət göstərir. Qazaxıstan tərəfi ilə əlaqələndirilməklə, fövqəladə xilasetmə qurumları tərəfindən təcili operativ tədbirlər görülür.

Qəza ilə bağlı qaynar xətlər:

AZAL
(+994) 12 5048280
(+994) 12 5048202
(+994) 12 5048203

Azərbaycan Respublikasının Aktau şəhərindəki Baş Konsulluğu
+77087127016

Qazaxıstan Respublikasının Fövqəladə Hallar Nazirliyi:
+7 7172 559621
+7 7292 319091

Qəza nəticəsində həlak olanlara Allahdan rəhmət, yaralılara şəfa diləyirik.

# 3 milyon insanı əhatə edən sosial islahat paketi

## Dövlət başçısının Sərəncamı ilə ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata çatdırıldı

Ölkəmizin istənilən bir sahəsində uğurları görmək mümkündür ki, bu da insanların firavanlığının təminində mühüm rola malikdir. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə daha da böyük inam və əminlik yaradıb. Prezident İlham Əliyev dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Güclü xalq, güclü dövlət, güclü lider vəhdəti müasir müstəqil Azərbaycanın devizinə çevrilib. Bu gün Azərbaycanda güclü dövlət idarəçiliyi mövcuddur.

Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri eyni qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artırır, xalqın güzəranını və rifahını dönmədən yüksəldir.

23 dekabr 2024-cü il tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncamı dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir. Sərəncama əsasən, 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub.





Həqiqətən də, bu sosial addımlar əhali tərəfindən böyük məmnunluqla qarşılanır. Bu gün Azərbaycan inkişaf və tərəqqi dövrünü yaşayır. Müasir, modern dövlət olaraq tanınan ölkəmiz Prezidenti İlham Əliyevin həyata keçirdiyi siyasət nəticəsində iqtisadi islahatları reallaşdırır, innovativ inkişafa yol açan dövlətə çevrilib. Əlbəttə ki, həyata keçirilən kompleks islahatlar, geniş quruculuq işləri və yaradılan güclü iqtisadiyyat Azərbaycanın əsas inkişaf göstəriciləridir. Bu uğurlar ölkəmizdə hökm sürən sabitliyin və əmin-amanlığın mövcudluğunu təsdiqləyir. Prezident İlham Əliyev, çıxışlarının birində vurğuladığı kimi, sabitlik olmayan yerlərə investisiyalar qoyulmur, inkişaf olmur, vəziyyət mənfi istiqamətdə inkişaf edir.

### MÜAVİNƏT VƏ TƏQAÜD ÖDƏNİŞLƏRİNDƏ 5 DƏFƏ ARTIM

Yeni sosial islahat paketində digər sosial ödənişlərin artırılması da yer alıb. Sərəncamla Nazirlər Kabineti gələn il sosial müavinətlərin və təqaüdlərin məbləğlərinin artırılması ilə bağlı təkliflərini 3 ay müddətində ölkə Prezidentinə təqdim edəcək. 2018-2024-cü illərdə müavinət və təqaüd ödənişlərində 5 dəfə artım baş verib və göründüyü kimi, bu artım dinamikası gələn il də davam edəcəkdir.

Sosial sahədə atılan mütərəqqi addımlar Azərbaycan vətəndaşının maraqlarının dövlətin həyata keçirdiyi siyasətin mərkəzində dayandığını bir daha təsdiqləyir. Ölkəmizdə son 21 il ərzində bütün sahələri əhatə edən sistemli və kompleks islahatlar aparılıb, ölkə iqtisadiyyatının dayanıqlı və dinamik inkişafı təmin edilib. Həyata keçirilən tədbirlər

Prezident İlham Əliyevin sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən çox yüksək qarşılanır. Dövlət tərəfindən həyata keçirilən sosialyönlü tədbirlər nəticəsində, vətəndaşların maddi rifah halı yaxşılaşdırılıb, sosial müdafiə və təminat sistemi gücləndirilib, sosial tələbat və ehtiyacları yüksək səviyyədə ödənilib. Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən, aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlib. Ölkəmizdə əhalinin sosial müdafiəsi sahəsində qəbul edilmiş qanunlar, fərman və sərəncamlar, əhalinin sosial müdafiəsi sahəsində əsaslı islahatlar bu sahədə prinsipcə yeni vəzifələr yaratmış, qarşıya milli normaların beynəlxalq təcrübəyə uyğunlaşdırılması, əhalinin sosial müdafiəsinə yeni yanaşma və ənənəvi metodların təkmilləşdirilməsi kimi tələblər qoymuşdur. Bu və ya digər amillər planlı, Azərbaycan dövlətinin sosial-iqtisadi inkişafına uyğun, dövlət büdcəsinin imkanlarına, hazırlanan proqramlara uyğun olaraq həyata keçirilir.

### ARTIMLAR ÜÇÜN İLLİK ƏLAVƏ OLARAQ 1,4 MİLYARD MANAT AYRILACAQ

Həyata keçirilən müxtəlif tədbirlər, islahatlar və maliyyə təminatının gücləndirilməsi əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təkan verir. Dövlət başçısının minimum aylıq əməkhaqqının artırılması haqqında sərəncamları və s. insan amilinə ayrılan diqqətin bariz nümunəsidir. Sosial sahə istiqamətindəki sərəncamlar dövlət siyasətinin sosialyönümlülüyünü, xalqın sosial qayğılarının həllinin Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətdə prioritet təşkil etdiyini göstərir.



Yeni Sərəncamla icrasına başlanan növbəti sosial islahat paketi gələn ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması da nəzərə alınmaqla ümumən 3 milyon insanı əhatə edəcək və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artırılacaq. Həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq.

"Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır". Ölkə Prezidentinin bu sözləri onun tapşırıqları əsasında ardıcıl olaraq həyata keçirilən, o cümlədən son illər bir-birinin ardınca reallaşdırılan, hər biri neçə-neçə vətəndaşın rifahının dəstəklənməsində önəmli rol oynayan sosial islahatlarda aydın və əməli təsdiqini tapır. Buna nümunə olaraq dövlətimizin başçısının Fərman və Sərəncamları əsasında 2018-2024-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketinin icra olunmasını, bu islahatlar üçün 7 milyard manat əlavə illik vəsait ayrılmasını göstərmək olar. Statistik rəqəmlərə nəzər salsaq həmin dövrdə minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiya 2,4 dəfə, müavinət və təqaüd ödənişlərində 5 dəfə, ünvanlı yardımın orta aylıq məbləğində 2,7 dəfə, minimum əməkhaqqında 2,7 dəfə, orta aylıq əməkhaqqında 2 dəfəyədək, median əməkhaqqında 2,2 dəfə, əmək haqqı fondunda 3 dəfə, əmək müqavilələrinin sayında 609 min (48 faiz) artımın olduğunu görürük.

### SOSİAL DÖVLƏTİN MÜHÜM CƏHƏTLƏRİ - SOSİALYÖNLÜ XƏRCLƏRİN ARDICIL VƏ CİDDİ ARTIMI

Prezident İlham Əliyevin imzaladığı yeni "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 23 dekabr 2024-cü il tarixli Sərəncam vətəndaş rifahının təminatı məqsədilə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir.

Dövlət büdcəsində sosialyönlü xərclərin ardıcıl və ciddi artımı da sosial dövlətin mühüm cəhətlərindən biri kimi diqqəti cəlb edir. Bu xərclər 2021-ci ildəki 10,3 mlrd. manatdan 2024-cü il üçün 15,5 mlrd. manata çatıb və 2025-ci ilin büdcə layihəsində 16,9 mlrd. manat nəzərdə tutulur. Beləliklə, həmin xərclərdə qısa müddətdə 6,6 mlrd. və ya 1,6 dəfə artım olub. Sosialyönlü xərclərin çəkisinin büdcədə 41 faiz olması sosial rifahın dövlət siyasətinin prioritet istiqaməti olduğunu bir daha göstərir. Sosial islahatların tərkib hissəsi kimi, əlilliyi olan şəxslərə yönələn sosial ödənişlərin də davamlı artımı təmin olunur. Buna nümunə olaraq əlilliyə görə sosial ödənişlərə ayrılan illik vəsaitdə 2018-ci ilə nisbətən 2,1 dəfə və ya 1,3 mlrd. manat artım özünü göstərib. Həmin vəsait 2018-ci ildə 1,2 mlrd. manat təşkil edirdisə, hazırda 2,5 mlrd. manata yaxındır. Əlilliyi olan şəxslərə dövlət büdcəsi hesabına verilən reabilitasiya vasitələrinin növlərinin sayı son 4 ildə 4 dəfəyə yaxın artırılaraq 34-dən 130-a çatdırılıb.

### YENİ SOSİAL PAKETİ İŞƏ BAŞLAYIR

Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Son 21 ildə pensiyaçıların, təqaüdçülərin, əlillərin, şəhid ailələrinin və digər sosial kateqoriyaların sosial müdafiəsi ilə bağlı çoxlu sayda hüquqi aktların qüvvəyə minməsi bu sahədə ciddi dəyişikliyə səbəb olmuş oldu.

Yola saldığımız ildə sosial sahədə islahatlar və uğurlu il olaraq yadda qaldı. Azərbaycan Prezidenti İlham Əliyevin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" Sərəncamı dövlətin yeni sosial paketinin işə başladığını təsdiqləmiş oldu. İmzalanan Sənəd bir daha təsdiq etmiş oldu ki, ölkədə Azərbaycan Prezidenti Cənab İlham Əliyevin rəhbərliyi ilə sosial sahədə həyata keçirilən uğurlu siyasət nəticəsində əhalinin, onun müxtəlif, o cümlədən aztəminatlı təbəqəsinin etibarlı sosial müdafiəsi yaradılıb, insanların həyat səviyyəsi davamlı olaraq yüksəlir.

Göründüyü kimi, Prezident İlham Əliyevin sosial sahəyə xüsusi diqqət və qayğısı ölkədə sosial tərəqqi, sosial müdafiə sisteminin gücləndirilməsi istiqamətində ardıcıl olaraq mühüm addımların atılmasını təmin edib və bu uğurlar qarşıdakı dövrdə də davam edəcək.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ölkəsini tənəzzülə aparan UĞURSUZ




Fransanın bir zamanlar güclü bir ölkə olduğu tarixi reallıq olsa da, bu gün bunun reallıq olmadığını görürük. Görürük ki, artıq Fransa nə vaxtsa gördüyümüz gücə sahib ölkə sayıla bilməz və heç sayılmır da. Bu Avropa ölkəsinin nüfuzundan isə ümumiyyətlə, danışmağa dəyməz, çünki nə zamansa olan nüfuzunu tamamilə itirib. Məsələ burasındadır ki, Fransanın "bu vəziyyətə" düşməsinin səbəbkarı var və səbəbkar da məhz həmin ölkənin rəhbəri, prezidenti Emmanuel Makrondur və bunu təsdiq edən faktlar, arqumentlər kifayət qədərdir. Reallıq ondan ibarətdir ki, Makron ölkəsini artıq tənəzzülə sürükləmiş uğursuzdur və aparılan sorğuların nəticələri belə təsdiq edir ki, fransızlar da bunu etiraf etməkdədirlər.

## Makronun populyarlıq üzrə "antirekordları qırması" narazılığın təsdiqidir

Təkcə ölkə müxalifəti deyil, elə məhz Fransa ictimaiyyəti də Makronun "fəaliyyətindən" qəti şəkildə narazıdır və onun qərarları belə uğursuz qərar olaraq qəbul edilməkdədir, hansıki, ən azından sorğuların nəticələri belə bunu təsdiq edir. Məsələn, görünən odur ki, prezident Makronun məhz Fransua Bayrunu baş nazir olaraq təyin etməsindən də fransızlar narazıdırlar. Ən azından dekabrın 17 və 18-də keçirilən İfop-Fiducial sorğusunun nətəcələri təsdiq edir ki, fransızların 64%-i Fransua Bayrunun baş nazir təyin olunmasından heç də razı deyillər. Onu da diqqətə çatdıraq ki, həmin sorğunun nəticələrinə əsasən, Makron populyarlıq üzrə anti-rekordları qırmaqdadır, çünki ümumilikdə Fransa əhalisinin cəmi 17%-i onu dəstəkləyib və bu da onun prezident seçilməsindən hazırki dövrə qədər ən aşağı səviyyə olaraq qeydə alınıb.

Sözsüz ki, Fransa liderinin dəstəklənməsinin belə aşağı səviyyədə olması səbəbsiz deyil. Respondentlərdən alınan sorğunun nəticələrinin də məhz həmin səbəblərə görə belə aşağı olması zərrə qədər də şübhə doğurmur. Çünki fransızlar yaxşı başa düşürlər ki, Emmanuel Makron, öncə qeyd edildiyi kimi, Fransanın nüfuzunu da, gücünü də öz reytinqi kimi həddindən artıq dərəcədə çox aşağı salıb. Bu gün Fransa dedikdə, bütün dünya ictimaiyyətinin nə düşündüyü hamıya bəllidir. Hər halda, müstəmləkəçilik yolunu tutan və kolonial siyasət yürüdən bir ölkə haqqında ən azından mənfi fikir formalaşması tamamilə məntiqidir. Dünya ictimaiyyəti, xüsusən də fransızlar özləri çox yaxşı bilirlər ki, belə bir yolu, müstəmləkəçilik yolunu tutan Makron özüdür və xüsusən də kolonial siyasət məhz Fransa liderinin rəhbərliyi altında yeridilir və ölkənin bu vəziyyətə düşməsinin, imicinin son dərəcə aşağı olmasının belə səbəbkarı da məhz onun özüdür. Fransa Prezidenti ilə bağlı sorğunun nəticələri istənilən halda, narazılığın təsdiqidir.

## Dövlət büdcəsi layihəsi Parisin maliyyə problemləri ilə bağlı yeni əsasların olduğundan xəbər verir

Diqqəti çəkən ən maraqlı məqam həm də Fransanın büdcə problemləridir. Şübhəsiz ki, hökumət xərclərinin 60 milyard avro azaldılması ilə əlaqədar yeni bir büdcə layihəsi hazırlamaq səbəbsiz ola bilməz. Elə həmin ölkənin müxalifətinin də bununla bağlı narazılıqları əbəs yerə deyil. Özünü "çox yekə" bir ölkə kimi göstərməyə çalışan Fransada maliyyə problemlərinin olması büdcə ilə bağlı qərarlarda da təsdqini tapır. Məhz haqqında qeyd olunan yeni dövlət büdcəsi layihəsi Parisin maliyyə problemləri ilə bağlı yeni əsasların olduğu barədə xəbər verir. İlin sonunda büdcə kəsirinin 148 milyard avro təşkil edə biləcəyi də proqnozlaşdırılır, daha doğrusu gözlənilir və hər halda, bunu da fransızlar sorğu zamanı verdikləri "cavablarda" nəzərə alıblar. Yəqin ki, Fransanın dövlət borclarının düz 3,2 trilyon yevroya qədər artması da nəzərdən qaça bilməzdi və bunun məsuliyyətinin də kimin üzərinə düşdüyü bəllidir.

Bütün dünyaya özünü uğurlu bir siyasət aparan kimi göstərməyə çalışan Fransa liderinin əslində uğursuz siyasət aparması məhz büdcə məsələlərində də öz təsdiqini tapır. Hansısa ölkəyə "idarəçilik yolu" göstərməyə çalışan, yersiz olsa da ağız büzən Makrondan soruşmaq lazımdır ki, niyə onun öz ölkəsi ilə bağlı belə "ağıllı təkliflər" verməyə "hünəri", yaxud da imkanı çatmır? Məsələn, Cənubi Qafqaz ölkələrinə burun soxan və guya "narazı" olduğunu göstərmək üçün ağzına gələni danışan Fransa prezidenti ölkəsinin büdcə xərclərinin azaldılmasına niyə qarşı çıxaraq, büzdüyü ağzını işə salmırdı? Əksinə, rəhbərlik etdiyi ölkədə dövlət borclarının artdığını görüb susur və hətta bunu doğru addım kimi cəmiyyətə tətbiq etmək və sırımaq istəyir. Makronun əsl üzü və mahiyyəti bax budur. Budur ölkəsini tənəzzülə aparan uğursuz...

## Rəsmi Paris üçün təkcə Afrika ölkələri belə böyük problem hesab olunur və bunu yaradan elə Makronun özüdür

Makron uğursuz biri olmaqla, təkcə ölkə daxilində problemlər yaratmayıb. Fransanın hüdudlarından kənarda da kifayət qədər problemlər yaratdığı çoxdan bəllidir. Rəsmi Paris üçün təkcə Afrika ölkələri belə böyük problem hesab olunur və bunu yaradan elə Makronun özüdür. İndi Fransa liderinin oradan yaxşı nə isə gözləməsi mümkün deyil və buna heç ümidi də yoxdur. Uzaq başı onun pis gözləntiləri ola bilər. Çünki bilir ki, Afrika ölkələrinin Makron üçün çoxlu sayda "sürprizlər" hazırlaması gözləniləndir. Yaxşı bilir ki, həmin "sürprizlər" istənilən anda ortaya çıxa bilər. Bundan qorxması da lazımdır və məntiqidir, çünki bu, onun üçün də, ölkəsi üçün də yaxşı heç nə vəd edə bilməz.

Bəli, afrikalılar Emmanuel Makronu çoxdan qapıdan qovublar və qapılarını da onun üzünə çırpıblar. Hələ bundan sonra da Fransa prezidentinin "görəcəkləri" var. Məsələn, afrikalılar israrlı şəkildə oradakı hərbi bazaların bağlanması tələbi ilə çıxış edirlər. Düzdür, büdcə xərclərini azaltmağa çalışan bir ölkə üçün xaricdə ordu saxlanması, daha az vəsait xərclənməsi deməkdir, amma Makron çox yaxşı başa düşür və anlayır ki, bu, onun ölkəsi üçün də, ələlxüsus, özü üçün də nə deməkdir.

Fransa lideri başa düşür ki, hərbi kontingentinin azaldılması birbaşa onun özünün keçmiş müstəmləkələrlə bərabər münasibətləri qoruya bilməməsi anlamına gəlir. Daha dəqiq desək, onun uğursuzluğu kimi qəbul olunur. Hətta özü belə bunu uğursuzluq kimi qəbul edir deyə, narahatdır. Bəli, Afrika ölkələri özlərinin daxili işlərinə daim müdaxilə edilməsinə məhz haqlı olaraq qarşı çıxırlar. Belə demək mümkünsə, afrikalılar elə həmin o müdaxilədən "cana gəliblər" və yolrulublar. İndi açıq şəkildə də həmin müdaxilələrdən canlarını qurtarmaq fikrindədirlər, çünki bunun faydasını görmədiklərini, zərərini gördüklərini yaxşı başa düşürlər. Amma Makron bunu nəinki qəbul etmir, heç başa düşmək də istəmir. Buna görə də bütün səylərini məhz milli azadlıq hərəkatının qarşısını almağa yönəldib. İstənilən bir hərəkatın da qarşısını almağa çalışır və müxtəlif qanunvericilik, eləcə də inzibati maneələr yaratmaqla buna nail olacağına ümid etmək istəyir. Amma onu da başa düşə bilmir ki, başlayan azadlıq hərəkatını dayandırmaq arzusunun puç olacağı indidən bəllidir və bu mənada da uğursuzluğu qaçılmazdır.

## Problemləri Makron özü yaradıb və ölkəsinin tənəzzüldə olmasının da səbəbkarı məhz özüdür

Həqiqətən də Fransanın öz keçmiş müstəmləkələrinə bir zamanlar nə dərəcədə "təsirli" olduğunu yaxşı bilirik. Lakin onu da bilirik ki, indi artıq bu "təsirlər" yoxdur və Fransanın keçmiş müstəmləkələrə təsirinin nə dərəcədə azaldığı göz önündədir. Ən azından, Fransa prezidentinin bu yaxınlarda Mayottaya səfəri zamanı qarşılaşdıqları deyilənləri təsdiq edir. Həmin səfər zamanı yerli sakinlərin istefa tələbi artıq məsələnin nə yerdə olduğunu müəyyən etmək üçün kifayət edir. Sözsüz ki, yerli sakinlərin belə tələblərlə çıxışı Makron üçün bir soyuq duş effekti olub və istənilən halda, onun uğursuzluğunu təsdiq edən məqam kimi də yadda qalıb. Əgər bir ölkə prezidenti öz səfərində istefa tələbi ilə qarşılaşırsa, bundan böyük uğursuzluq ola bilməz. Onu da Fransa liderinin diqqətinə çatdırmaq istərdik ki, bu uğursuzluq heç də sonuncu ola bilməz və onu hələ çox uğursuzluqlar gözləyir.

"Problemlərin" öhdəsindən Makronun necə gələcəyi heç özünə də aydın deyil və özü də bilmir ki, bunun sonu daha nə ilə nəticələnəcək. Amma bir şeyi yaxşı bilir ki, problemləri özü yaradıb və ölkəsinin tənəzzüldə olmasının da səbəbkarı məhz özüdür. Əgər bunu bilməsəydi narahat olmazdı. Bu məqamda ona həm də bir vaxtlar güclü ölkəni iqtisadi və siyasi tənəzzülə aparan biri olduğunu xatırlatmaq tam yerinə düşür. Ümumiyyətlə, Fransanın ən uğursuz prezidenti kimi tarixə düşəcəyinə də əminik. Əminik ki, ölkəsini tənəzzülə aparan uğursuz biri kimi yadda qalacaq...

***İnam Hacıyev***

## YAP Mərkəzi Aparatı Aktau yaxınlığında baş vermiş təyyarə qəzası ilə əlaqədar başsağlığı verib

"Azərbaycan Hava Yolları" şirkətinə məxsus sərnişin təyyarəsinin Qazaxıstanın Aktau şəhəri yaxınlığında qəzaya uğraması xəbərini böyük üzüntü ilə qarşıladıq. Faciədə həyatını itirənlərin ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı verir, xəsarət alanların tezliklə şəfa tapmasını diləyirik.

***Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatı***

# Maaş və pensiyaların artımı real inflyasiya fonunda nə vəd edir?

Milli Məclisin deputatı Əli Məsimli 2025-ci il üçün əməkhaqqı, pensiya, müavinət artımı haqda fikirlərini bildirib. Deputatın fikirlərini oxucularımıza təqdim edirik. Rəsmi statistika məlumatlarına görə, 2024-cü il noyabrın 1-i vəziyyətinə Azərbaycan iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1773,3 min nəfər olmuş, onlardan 881,7 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 891,6 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir.2024-cü ilin yanvar-oktyabr aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 7,8 faiz artaraq 993 manat təşkil etmişdir. Hazırda minimum əməkhaqqı orta aylıq əməkhaqqının 35 fazi səviyyəsində olmaqla 345 manat təşkil edir. Minimum pensiya isə 280 manat və ya orta aylıq pensiyanın 57 fazi səviyyəsindədir. Bahalaşmanın əhalinin xeyli hissəsinin gəlirlərinə adekvat olmayan dərəcədə sürətləndiyi hazırkı zamanda cəmiyyətdə əmək haqqı,pensiya,müavinət və digır ödənişlərin artırılması sahəsində böyük gözləntilər yaranıb.





Azərbaycan Prezidentinin "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" 23 dekabr 2024-cü il tarixli sərəncamı ilə növbəti sosial paketinin icrasına start verildi.Bu Sərəncamla icrasına başlanan növbəti sosial paketi gələn ilin əvvəlindən pensiyaların indeksləşdirilərək artırılması da nəzərə alınmaqla ümumən 3 milyon insanı əhatə edəcək və əməkhaqqı, pensiya, müavinət,təqaüdlər artırılacaq. Həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq. Sözügedən sərəncama əsasən 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 400 manata çatdırılacaq.

Bununla yanaşı sərəncamda Nazirlər Kabinetinə tapşırılıb ki,əmək pensiyasının minimum məbləğinin 2025-ci il fevralın 1-dən 320 manata çatdırılmasına dair təkliflər hazırlasın və bir ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin. Sərəncamda digər sosial ödənişlərin artırılması məsələləsi də yer alıb. Nazirlər Kabineti gələn il sosial müavinətlərin və təqaüdlərin artırılması ilə bağlı təkliflərini 3 ay müddətində ölkə Prezidentinə təqdim edəcək. Sərəncamın bu hissəsi 1 milyon nəfərdən artıq vətəndaşımızı əhatə edəcək.

Qeyd edək ki,bundan 2 il əvvəl 2023-cü il yanvarın 1-dən minimum aylıq əmək haqqı 15 faiz artırılaraq 300 manatdan 345 manata,fevralın 1-dən isə minimum pensiya 16,7 faiz artırılaraq 240 manatdan 280 manata çatdırılmışdı. Yeni sərəncam üzrə isə gələn ildən minimum aylıq əmək haqqının məbləği 16 faizə yaxın artırımla hazırkı 345 manatdan 400 manata, əmək pensiyasının minimum məbləği isə 14 faizdən çox artırılaraq 280 manatdan 320 manata çatdırılacaq.

Bundan əlavə Nazirlər Kabineti müəyyən etdiyi dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq tarif (vəzifə) maaşlarının məbləğlərinin bir ay müddətində bu Sərəncamın 1-ci hissəsinə uyğunlaşdırılmasını təmin edəcək. Bu əsasda Nazirlər Kabineti minimum aylıq əmək haqqının 400 manata çatdırılmasına uyğun olaraq Vahid Tarif Cədvəlinin yeni variantını hazırlayıb təsdiq edəcək.

Məlumdur ki,Vahid Tarif Cədvəlində maaşlar 19 dərəcə üzrə müəyyənləşdirilib. Minimum aylıq əməkhaqqı artırılan zaman hökumətin təsdiq etdiyi 19 pilləli Vahid Tarif Cədvəli üzrə Nazirlər Kabinetinin aktları ilə müəyyən olunmuş büdcə təşkilatlarında çalışan işçilərin aylıq vəzifə maaşlarında artım baş verir. Bu dəfə də sosial, elm, müəyyən dərəcədə təhsil və səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s. üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin ilk pilləsindəki maaş 400 manata çatdırılmaqla, digər pillələr üzrə maaşlarda da buna uyğun artımlar tətbiq ediləcək.

Hazırkı Vahid Tarif Cədvəlində 1-ci dərəcə üzrə maaş 345 manat, 5-i dərəcə üzrə- 406 manat, 10-cu dərəcə üzrə- 497 manat,15-ci dərəcə üzrə- 607 manat, 19-cü dərəcə üzrə isə 1125 manatdır. Gələn ilin yanvarında Nazirlər Kabinetinin qərarı ilə təsdiq ediləcək Vahid Tarif Cədvəlində 1-ci dərəcə üzrə maaş 16 faizə yaxın artıb 345 manatdan 400 manata çatdırılacaq. Vahid Tarif Cədvəlində 2-19-cu dərəcələr üzrə artımın dəqiq məbləğləri gələn il yanvarında məlum olacaq. Bununla belə təxmin etmək olar ki, maaşlar məsələn, 5-ci dərəcə üzrə-406 manatdan 470 manata,10-cu dərəcə üzrə- 497 manatdan 580 manatın altına,15-ci dərəcə üzrə- 607 manatdan 700 manatın üstünə,19-cü dərəcə üzrə isə 1125 manatdan 1300 manatın üstünə çatdırılacaq. Minimum aylıq əmək haqqının 345 manatdan 400 manata çatdırılmasından dövlət sektoru üzrə 400 min nəfərə, özəl sektor üzrə 300 min nəfərə yaxın, toplam isə 700 min nəfər adam faydalanacaq.

Bahalaşmanın əhalinin xeyli hissısinin gəlirlərinə adekvat olmayan dərəcədə sürətləndiyi hazırkı zamanda əmək haqqı, pensiya,müavinət və digər ödənişlərin artırılması çox vacib məsələdir.Amma bu sahədə müsbət dinamikanın olması məsələnin bir tərəfidir. Sərəncamın 2.4 maddəsində Nazirlər Kabinetinə tapşılıb ki, bu Sərəncamdan irəli gələn digər məsələləri də həll etsin.Adətən burada texniki, təşkilatı, uyğunlaşma və sair bu kimi məsələlər nəzərdə tutulur.Amma sərəncamın adı,mahiyyəti və hədəfi baxımından həlli vacib olan digər məsələlər arasında ən vacibi inflyasiya amili ilə bağlı,xüsusən də əhalinin aztəminatlı təbəqəsinin gəlirlərinin çox hissəsini sərf etdiyi əsas tələbat mal və məhsullarının sürətlə bahalaşması,bu sahədə qiymət artımının tempi və səviyyəsi ilə bağlı məsələlərdir.

Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2024-cü ilin yanvar-noyabr aylarında pərakəndə ticarət şəbəkəsində istehlakçılara 53867,7 milyon manatlıq, o cümlədən 29534,8 milyon manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 24332,9 milyon manatlıq qeyri-ərzaq malları satılmışdır. 2024-cü ilin yanvar-noyabr aylarında alıcıların pərakəndə ticarət şəbəkəsində aldıqları mallara xərclədiyi vəsaitin 50,6 faizi ərzaq məhsullarının, 4,2 faizi içkilər və tütün məmulatlarının, 15 faizi toxuculuq məhsulları, geyim və ayaqqabıların, 5,8 faizi avtomobil benzini və dizel yanacağının, 5 faizi elektrik malları və mebellərin, 2,1 faizi əczaçılıq məhsulları və tibbi ləvazimatların, 1,2 faizi kompüterlər, telekommunikasiya avadanlıqları və çap məhsullarının, 16,1 faizi isə digər qeyri-ərzaq mallarının alınmasına sərf olunmuşdur.Əhalinin aztıminatlı təbəqəsinin gəlirlərinin ərzaq mallarının alınmasına sərf etdiyi hissəsi 50,6 faizlik orta statistik göstəricidən xeyli yüksəkdir.Sözügedən dövrdə pərakəndə ticarət şəbəkəsində əhalinin bir nəfəri orta hesabla ayda 480 manatlıq, o cümlədən 263,2 manatlıq ərzaq məhsulları, içkilər və tütün məmulatları, 216,8 manatlıq qeyri-ərzaq malları almışdır.

Rəsmi statistikaya görə, 2024-cü ilin yanvar-noyabr aylarl 2023-cü ilin yanvar-noyabr aylarına nisbətən inflyasiya 2 faiz, 2024-cü ilin noyabr ayında istehlak qiymətləri indeksi 2023-cü ilin noyabr ayına nisbətən isə 4,4 faiz, o cümlədən qida məhsulları, içkilər və tütün məmulatları üzrə 4,4 faiz, qeyri-qida məhsulları üzrə 2,2 faiz, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 6 faiz təşkil etmişdir. Artıq qeyd etdiyimiz kimi bu ilin on ayında orta aylıq nominal əməkhaqqı 7,8 faiz artıb.

Rəsmi rəqəmlərdən çıxış etdikdə, inflyasiyanın cəmi 2 faiz olması şəraitində nominal əmək haqqının artımının 7,8 faiz təşkil etməsi,bu iki göstəricinin fərqindən əmələ gələn real əmək haqqının 5,8 faiz artdığını göstərir. Rəsmi proqnozlara görə, gələn il 4,6 faiz inflyasiya proqnozlaşdırılıb.Bu halda da gələn il də minimum əməkhaqqının nomimalda 16 faiz artmaqla inflasiyadan sürətlə artımı şəraitində minimum əmək haqqına münasibətdə real əmək haqqının 10 faizdən çox artacağı anlamına gəlinir.Amma məsələ burasındadır ki, sözügedən inflyasiya göstıricisi 528 mal, məhsul və xidmər üzrə hesablanır və bu halda onun 400 manat minimum əməkhaqqı alan vətəndaşa birbaşa götürdükdə, elə bir aidiyyatı olmur.

Aztəminatlı təbəqənin gəlirlərinin çox hissəsi əsas tələbat mal və məhsullarına sərf olunur.Ona görə də onların durumuna həmin qəbildən olan məhsulların qiymət artımı daha güclü təsir göstərir. Digər tərəfdən əməkhaqqı, pensiya, müavinətlərin artırılması xəbəri çıxan kimi qiymət artımı sürətlənir. Müstəqil araşdırmalar göstərir ki, bu il bir sıra ərzaq məhsullarının və əsas tələbat mallarının qiymətləri 10-27 fazi arasında, kərə yağının qiymiti isə 2 dəfədən çox artıb. Ət, yağ və bu kimi məhsulların qiymət artımının gələn il də davam ediləcəyi gözləniləndir. Qiymət artımının hər faizinə görə əhali ildə 590 milyon manat, o cümlədən ərzaq malları üzrə isə 300 milyon manata yaxın əlavə xərcə düşür.

Əgər nəzərə alsaq ki, nominal əməkhaqqı əhalinin başlıca gəlir mənbəyi, real əmək haqqı isə onun həyat səviyyəsini ifadə edən ən mühüm sosial-iqtisadi göstəricilərdən biridir,onda təsirli antiinflyasiya tədbirləri görülməsə,əmək haqqı, pensiya, müavinətlərin nə qədər artırılması elə bir əhəmiyyət kəsb eləmir.Ona görə də Azərbaycan Prezidentinin imzaladığı "Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında" sərəncam ilə start verilən yeni sosial paketin öz təyinatına görə dolğun şəkildə reallaşdırılması̇ndan ötrü digər məlum tədbirlərlə yanaşı, həm də inflyasiyaya qarşı təsirli tədbirlər də görülməlidir ki, əmək haqqı, pensiya, müavinətlərin artan məbləği inflyasiyanın "yeminə" çevrilməsin, əhalinin aztəminatlı təbəqəsinin real əmək haqqının artmsını və bu əsasda əlavə mal və məhsul ala bilməsini təmin edə bilsin.

***Elçin Bayramlı***

## "Məqsəd 2026-cı ilin sonuna qədər 140 min soydaşımızın ata-baba yurdlarına qayıtmasıdır"

"Bu gün Şuşa daha bir köç karvanını qəbul etdi. Bu, sevinc köçü idi". Bu sözləri SİA-ya açıqlamasında Musa Quliyev deyib. O bildirib ki, əgər 30 il bundan əvvələ qədər biz qaçqın və məcburi köçkünlərin ata-baba yurdlarından didərgin düşməsinin ildönümünü qeyd edirdiksə, artıq onların geri dönüşünü qeyd edirik: "Şəhər, qəsəbələrimizin işğaldan azad olunma günlərini qeyd edirik. Şuşa şəhərinin timsalında işğaldan azad olunmuş ərazilərə köç sevindirici hadisədir. Azərbaycanın hər bir vətəndaşının illərlə arzuladığı hadisənin reallaşmasıdır. Bu il də sona çatmaq üzrədir. Şərqi Zəngəzurun və Qarabağın yenidən qurulması prosesi uğurla davam edir. "Böyük Qayıdış"la bağlı daim dövlət proqramı bu il də qarşıya qoyulan bütün vəzifələri yerinə yetirib. Bu ilin sonuna qədər 25 min soydaşımızın ata-baba yurdlarına qayıdıb məskunlaşması təmin olunacaqdır. Artıq Şuşa şəhəri yenidən qurulur, abadlaşır, özünün tarixi görkəmini saxlamaqla müasir şəhərə çevrilir. Təkcə Azərbaycan vətəndaşlarının deyil, dünyanın hər yerindən gələn insanların sevimli məkanına çevrilir. Şuşa ilə yanaşı Laçın, Zəngilan, Qubadlı, Kəlbəcər, Ağdam, Cəbrayıl, Füzuli şəhərləri də tikilir, biz bu şəhərlərə də köçün şahidi olmuşuq. Ağrılı yerimiz, 20-ci əsrin faciəsi olan Xocalının bərpa olunması, Xocalıya ilk sakinlərin köçməsi də bu ilin ən fərəhli hadisələrindən biri oldu. Bu proses davam edəcəkdir. Qarşıya qoyulan məqsəd ondan ibarətdir ki, 2026-cı ilin sonuna qədər 140 min soydaşımız ata-baba yurdlarına qayıtsın. Əlbəttə, bu insanların ata-baba yurdlarına qayıtması illərlə həsrətlə gözlədiyi evlərinə, torpaqlarına dönmələri sevindirici hadisədir. Eyni zamanda Azərbaycanın gücünün göstəricisidir". "Həmin bölgələrin dirçəlişi gözümüz önündə baş verir. Azərbaycan iqtisadiyyatına da böyük qatqı qatmaqdadır. Biz gələn ilin büdcəsini bu yaxınlarda müzakirə etdik. Çox sevinc hissi ilə hər birimiz qeyd edirik ki, 2025-ci ilin dövlət büdcəsinin gəlir hissəsində işğaldan azad olunmuş bölgələrimizin də payı var. Azərbaycan iqtisadiyyatına artıq vəsait daxil olmaqdadır. Bütövlükdə götürdükdə cənab Prezident İlham Əliyevin rəhbərliyi altında qarşıya qoyulan hədəflərə çatmağımız istiqamətində böyük işlər görmüşük. Gələn ilin də büdcəsi daxil olmaqla dövlət proqramının həyata keçirilməsi ilə əlaqədar 20 milyard manatdan çox vəsait xərclənmişdir. Bu da şübhəsiz ki, nəticələrini verməkdədir. Bu proses davam edir. Azərbaycan artıq sevincli günlərini yaşamaqdadır" - deyə o, əlavə edib.




***Söylü Ağazadə***

# Təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının iclası keçirilib



Dekabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə təyyarə qəzasının səbəblərinin araşdırılması üçün yaradılmış Dövlət Komissiyasının iclası keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumat görə, Komissiyanın sədri Əli Əsədov Prezident İlham Əliyevin hadisə ilə bağlı araşdırmanı şəxsi nəzarətə götürdüyünü bildirib. Dövlət Komissiyası bir sıra vacib və təxirəsalınmaz məsələləri, o cümlədən qəza nəticəsində xəsarət alanlara və yaralananlara zəruri yardım göstərilməsi ilə bağlı işləri nəzərdən keçirib. Həmin şəxslərə Qazaxıstan tərəfi ilə birlikdə tibbi yardım göstərilməsi üçün səhiyyə naziri Teymur Musayevə müvafiq tapşırıqlar verilib.

Qəza nəticəsində həlak olmuş şəxslərin identifikasiyası üzrə işlərin aparıldığı qeyd olunub. Xəsarət almış şəxslərin ailələri və yaxınları ilə zəruri işlərin aparılması istiqamətində təxirəsalınmaz tədbirlərin görülməsi ilə bağlı tapşırıq verilib. Heydər Əliyev Beynəlxalq Aeroportunda yaradılmış "Qaynar xətt" vasitəsilə qəzaya uğramış təyyarənin sərnişinlərinin ailə üzvləri və yaxınları müvafiq qaydada məlumatlandırılaraq, onlara psixoloji və digər zəruri dəstək göstərildiyi qeyd edilib. Azərbaycan Respublikası Baş Prokurorluğunun qazaxıstanlı həmkarlarla birlikdə hadisənin başvermə səbəblərini araşdırdığı və cinayət işi üzrə istintaq apardığı bildirilib. İstintaqın gedişi haqqında ictimaiyyətin müntəzəm qaydada məlumatlandırılması ilə bağlı tapşırıq verilib.

Qəza nəticəsində xəsarət almış və hazırda Aktau şəhərində müalicəsi davam edən Azərbaycan vətəndaşlarının zərurət yarandıqca və həkimlərin razılığı əsasında ölkəmizə evakuasiyasının təşkili ilə əlaqədar müvafiq tədbirlərin görüldüyü bildirilib. Xəsarət almış şəxslərə zəruri yardım göstərilməsi və bundan irəli gələn digər məsələlərin həlli ilə bağlı qazaxıstanlı həmkarlarla hökumət üzvləri səviyyəsində daimi sıx təmasların və birgə səylərin həyata keçirildiyi vurğulanıb. Komissiya üzvlərinə səlahiyyətləri üzrə müvafiq işlərin aparılması ilə bağlı tapşırıqlar verilib.

# Rəqəmsal təhsil sistemi ənənəvi təhsil sistemini əvəz edə bilər?



## EKSPERT AÇIQLADI



Texnologiyanın sürətlə inkişaf etdiyi müasir dövrdə, rəqəmsal platformalar təhsilin ənənəvi metodlarına yeni alternativlər təklif edir. Xüsusilə onlayn təhsil, hər kəsə fərqli yerlərdən və zaman çərçivəsində bilik əldə etmək imkanı yaradır. Mövzu barədə təhsil eksperti Əmrah Həsənli SİA-ya açıqlamasında deyib: "Onlayn təhsilin bir neçə vacib üstünlüyü vardır ki, bu artıq əlçatanlıqdır. Onlayn təhsil tələbələrə coğrafi mühit məhdudiyyətlərindən asılı olmayaraq təhsil almaq imkanı verir. Bu xüsusiyyət əsasəndə kənd və uzaq bölgələrdə yaşayan şagirdlər üçün də əsas məqamlardan biridir. Fərdi təhsil, onlayn təhsil özünü inkişafetmə bacarıqlarını inkişaf etdirir. Hər bir tələbələrin fərdi tələblərinə uyğun tədris üsullarını təklif edir. Resurslar onlayn təhsil, video dərslər, multimedialı materiallar, onlayn kitabxanalardır ki burada ənənəvi təhsildə olmayan imkanlardan biridir. Onlayn təhsil zamanı tələbələr əsas texniki tərəfdən çətinliklə üzləşir, yəni internet əlaqəsi, platformalar düzgün işləməyəndə yaxud texniki avadanlıq olmayanda tələbələrin onlayn təhsildə çətinlik çəkməsinə gətirib çıxarır. Onlayn təhsildə ən çox istifadə edilən platformalar Azərbaycan daxil olmaqla "Zoom", "Microsoft Teams" proqramlarıdır ki, bunlar dərslərdə, onlayn görüşlər üçün əsas öyrənmə metodlarından biridir. İnternetə çıxışı olmayan tələbələr üçün onlayn dərs materiallarını götürə bilər ki, burada elektron dərsliklərdi, çap olunmuş tədris materiallarını aid edirik. Əlavə olaraq düzdü tam uyğun olmasa da "hybrid" təhsil sistemini götürə bilərik, yəni ənənəvi təhsil metodlarını və üsullarından onlayn dərsləri birləşdirən bir məhfumdur ki şagirdlərin daha dərsə qoşulmasını asanlaşdıra, müəyyən qədər təsir göstərə bilər. Biz həmişə rəqəmsal təhsilin keyfiyyətini artırmaq, yəni rəqəmsal təhsil və onlayn tədrisdən danışırıqsa artıq süni intellekt ortaya girəcək ki, bu da tələbələrin fərdi inkişafını izləməkdi, onların müvəffəqiyyətlərini proqnozlaşdırmaqdı. Birdə mən bir təlimdə də bunu eşitmişdim ki, blotexnologiyalar deyilən bir anlayış vardır ki blo əsaslı platforma, tədris materialları, resurslar, dərsdə olan tapşırıqları mütəmadi olaraq tələbələrə təqdim etməyə imkan verir".

Ekspert əlavə edib ki, rəqəmsal təhsil sistemi ənənəvi təhsil sistemini tamamilə əvəz edə bilməz: "Bu mənim subyektiv fikrimdi, inanmıram, çünki onlayn təhsil nə qədər üstünlüklərə malik olsada ənənəvi təhsil sistemi tələbələrin sosial bacarıqlarını, üzbəüz tədris var, laboratoriya işləri varki bunları təmin etmək üçün də ənənəvi təhsildə olacaq. Qeyd edim ki, onlayn təhsil ənənəvi təhsilin tamamlayıcı bir vasitə kimi istifadə edilməsi daha məqsədə uyğun ola bilər. Bugünki gündə virtual reallıq və süni intellekt təbii ki onlayn təhsilə öz təsirini göstərir. Biz virtual reallıqdan danışsaq tələbələr real dünya vəziyyətlərini virtual mühitdə təcrübə edə bilirlər, süni intellektlə getsək tədris sürətinə uyğun daha tez dərs planlarını hazırlamaq, onların bayaqda süni intellektdən danışanda analiz etməyə imkan verməlməridir ki tələbələrə bunların hamısı, onlayn təhsilə təsir edən amillərdir.

**Xeyrənsə Piriyeva**



MƏTLƏB
Metlebsalahov@mail.ru

# Putin Ərdoğana əsl üzünü göstərir...

## Əsəd getdi, Suriyada mövqe savaşı qızışır

***Bəşər Əsəd yenə problem olaraq qalır. Bir müddət əvvəl hakimiyyətini qoyub Moskvaya qaçan keçmiş diktator, indi də Vladimir Putinlə Rəcəb Tayyib Ərdoğan arasında böyük problemə, hətta Qərbin uzun müddətdir ki, can atıb amma nail olmadığı gərginliyə səbəb olmaqdadır. Canını qurtarmaq üçün tonlarla qızılı, milyard dollarlarla sərvəti V.Putinə verib Kremlə sığınan B.Əsədin süqutu, ilk növbədə Moskva ilə Ankara arasındakı həqiqi vəziyyəti də gün üzünə çıxardı. Məlum olur ki, V.Putin B.Əsədin devrilməsində əsas fiqurlardan sayılan Türkiyəyə qarşı indi daha çox qəzəblidir. 12-13 ildir B.Əsədlə düşmən vəziyyətdə olan Türkiyə hakimiyyəti Suriyadakı son proseslərdə aktiv rol oynayıb və indi də aparıcı mövqedədir. Türkiyə XİN rəhbəri Hakan Fidan Dəməşqə səfər edib, Suriyanın yeni administrasiyasının rəhbəri Əhməd əş-Şara ilə görüş keçirib. Ardınca Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da çox tezliklə Suriyaya gedəcəyi gözlənilir. Özü də dünya güclərinin ac canavar kimi Suriya sərvətlərinə qonduqları bir vaxtda...***

Gələk Rusiya liderinin Türkiyəyə münasibətinə. V.Putin ənənəvi illik mətbuat konfransında hər şey barədə danışıb, amma ən çox diqqətçəkən məqam Kreml sahibinin Türkiyə barəsindəki fikirləri olub. Daha doğrusu V.Putinin B.Əsədin süqutundan sonra diplomatik nəzakət qaydalarını bir kənara atıb əsl mövqeyini ortaya qoyması adlandıraq bunu. "Əlbəttə deyə bilərsiniz ki, bunun özü də hələ açıq heç nəyi ifadə etmir. Amma tam açıq heç nəyi ifadə etməsə də, V.Putinin Türkiyə barədəki fikirləri Kremlin rəsmi Ankaraya olan sərt üzünü görməyə kifayət edir.

Son mətbuat konfransında bir sıra mətləblərə aydınlıq gəldi. Aydın oldu ki, keçmiş KQB generalı B.Əsədin süqutunda başlıca rol oynayan, silahlı müxalifətin əsas koordinatoru kimi göstərilən Türkiyəyə qarşı deyildiyi kimi, elə də dost münasibəti göstərmir. Əksinə, müvəqqəti və məcburi vəziyyət üzündən birgə tərəfdaşlıq işində yolun sonu görünür sanki. Əlbəttə, şəxsi olaraq V.Putin R.T.Ərdoğan üçün sınanmış dost belə ola bilər, amma ortada Rusiyanın dövlət siyasəti və dövlət maraqları varsa, o zaman şəxslərin özəl münasibəti ortada rol oynamır. Öncə V.Putinin mətbuat konfransında səsləndirdiyi fikirlərə nəzər salaq. V.Putin Suriyadakı son proseslərdən qazanan əsas ölkənin Türkiyə deyil, məhz İsrail olduğunu söyləyib. V.Putin sözlərinə onu da əlavə edib ki, İsrail ordusunun Suriya ərazisində ələ keçirdiyi ərazilərdəki insanlar guya İsrailə birləşmək barədə müraciətlər ediblər. Putin sanki bununla İsrailə haqq qazandırmış oldu. Rusiya lideri həmin mətbuat konfransında "İsrail çətin ki, həmin əraziləri tərk etsin" cümləsini də işlədib.

V.Putinin mətbuat konfransı zamanı cavablandırdığı suallardan biri PKK terror təşkilatı ilə bağlı idi. Rusiya lideri PKK barədə danışarkən, əvvəla, "terrorçu" ifadəsi işlətməyib, əksinə, "kürdlər döyüşkən millətdir" sözlərindən istifadə edib. Digər tərəfdən, Putin Türkiyənin Suriya ərazisində təhlükəsizlik maraqlarının olduğunu birdirməklə yanaşı, kürdlərin özlərinin dövlət istəyini də xatırladıb. SİTAT: "Birinci Dünya müharibəsinin nəticələrinə uyğun olaraq 30 milyonluq kürdlərin dövləti olmalıydı". Putinin bu sözləri Yaxın Şərqdə hər şeyn yenidən qurulmaq üzrə olduğu bir vaxtda səsləndirməsi, artıq Kremlin hər kəslə "açıq danışmaq" istəyi ilə bağlıdır. "Kürd kartını" yenidən səsləndirməklə V.Putin Moskvanın Yaxın Şəqrdən əl çəkmədiyini, B.Əsədi itirməklə barışsa da, mövqe savaşından geri çəkilməyəcəyini açıqca ortaya qoydu. Əlbəttə, az-çox siyasətlə məşğul olan hər kəs anlayır ki, böyük güclərdən biri olan Rusiya heç zaman bu bölgədən əl çəkəsi deyil. İstəyinə nail olmaq üçün istənilən vasitədən də imtina etmir- kürd məsələsində olduğu kimi.

Əslində, keçmiş KQB generalının mətbuat konfransında rəsmi Ankaraya qarşı səsləndirdiyi fikirlər Moskvanın istənilən zaman Türkiyəyə qarşı "kürd kartından" yararlana biləcəyinin siqnalıdır. Əlbəttə, V.Putinin bu mövqeyini Türkiyədə əla bilirlər və Moskvaya qarşı cavab addımları hər zaman masanın üstündədir.

Neçə illərdir ki, Qərbə qarşı birgə mövqe sərgiləyən Ankara və Moskva, nə vaxtsa bu prosesin başa çatacağını, yenə də əsrlər boyu davam edən rəqabətin işə düşəcəyini əla bilirdilər. Rusiya və Türkiyə arasındakı mövqe çatını göstərən əsas məsələ Ukrayna ilə bağlıdır. Rəsmi Ankara hələ də israrla Krımı Rusiyanın deyil, məhz Ukraynanın ərazisi hesab edir və rəsmi Kiyevin ərazi bütövlüyünü dəstəklədiyini zaman-zaman ucadan bəyan edir. Məncə, Suriyadakı yeni situasiya Rusiya və Türkiyə arasındakı münasibətlər üçün də yeni dönəm demək olacaq. Siyasətdə əbədi düşmənlər olmadığı kimi, əbədi dostlar da yoxdur.

# Gəncə şəhəri MDB Oyunlarının mərkəzi olacaq

## Prezident İlham Əliyev: "Yay Olimpiya Oyunlarında Azərbaycan müzəffər ölkə kimi, qalib ölkə kimi iştirak edirdi"

***İdman və bədən tərbiyəsi hər bir ölkənin beynəlxalq aləmdə tanınması, nəslin sağlam inkişafı üçün önəmli vasitələrdən biri olduğundan, bu sahəyə dövlət tərəfindən böyük diqqət ayrılıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub və Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb. Azərbaycan dünyanın idman arenasında artıq özünə layiqli yer tutub. İstər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə.***

Ümummilli Lider Heydər Əliyevin siyasi və iqtisadi kursunu uğurla davam etdirən, ideyalarını gerçəkləşdirən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin siyasətinin məntiqi nəticəsi olaraq ölkənin bütün sahələrində, eləcə də idman sahəsində böyük nailiyyətlər əldə olunub. Dünyada ən sürətli templərlə inkişaf edən ölkəyə çevrilən Azərbaycanda yüzlərlə beynəlxalq yarışlar keçirilib. Dünyanın idman ictimaiyyətinin diqqətini çəkən Azərbaycanda ən irimiqyaslı yarışlar yüksək səviyyədə təşkil olunur. Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə diqqətlə yanaşması, idmançıların qayğı və problemləri ilə yaxından maraqlanması ölkədə idmanın kütləviləşməsinə, gənc nəslin bu sahəyə sürətli axınına şərait yaradıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub və Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb. Üola salacağımız 2024-cü il də Azərbaycan idmanı üçün uğurlu olmuşdur. "Azərbaycan idmançıları beynəlxalq yarışlarda ölkəmizi ləyaqətlə təmsil etmişlər, 1700-ə yaxın medal qazanılmışdır. Bu, onu göstərir ki, idmanımız inkişaf edir, yeni nəsil idmançılar yetişir və beləliklə, Azərbaycan idman dövləti kimi öz gücünü müxtəlif beynəlxalq yarışlarda təsdiqləyir". Bu fikirləri Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev 2024-cü ilin idman yekunlarına həsr olunan mərasimdə çıxışı zamanı bildirib. İlin ən böyük yarışı Yay Olimpiya Oyunları olduğunu bildirən dövlət başçımız burada da Azərbaycan idmançılarının tarixi nəticə əldə etdiyini bildirib: "Azərbaycan müstəqil ölkə kimi 1996-cı ildən Olimpiya Oyunlarında iştirak edir və bu dəfə ən yüksək yerə layiq görülmüşdür, komanda hesabında Azərbaycan 30-cu yerdə qərarlaşmışdır. Bu, ən yüksək nəticədir. Bütövlükdə iki yüzdən çox milli komanda Olimpiya Oyunlarında iştirak edirdi. Onların arasında 30-cu olmaq çox böyük nailiyyətdir. Onu da deməliyəm ki, müsəlman ölkələri arasında Azərbaycan üçüncü yerdə idi. Nəzərə alsaq ki, dünyada 60-a yaxın müsəlman ölkəsi var, bu da böyük və tarixi nailiyyətdir. Komandamız ikisi qızıl, ikisi gümüş, üçü bürünc olmaqla yeddi medal qazanaraq ölkəmizin idman şöhrətini bir daha yüksəklərə qaldırmışdır".

### "VƏTƏNPƏRVƏRLİK AMİLİ DAİM DİQQƏTDƏ OLMALIDIR"

Dövlətimizin başçısı, Milli Olimpiya Komitəsinin Prezidenti Cənab İlham Əliyevin diqqət və qayğısı sayəsində bu gün idmanımız özünün yeni inkişaf mərhələsinə qədəm qoyub. Bütün olimpiya oyunlarında idmançılarımız uğurlar qazanıblar. İdman tarixinin yaxın dövrünə nəzər salsaq görərik ki, dünyanın ən mötəbər idman tədbirlərindən olan Olimpiya Oyunlarında Azərbaycan idmançılarının möhtəşəm qələbələr qazanıblar. Olimpiya Oyunlarında Azərbaycan komandasının əldə etdiyi nəticələrə nəzər salsaq,




çox böyük uğurların əldə edildiyinin şahidi olarıq. İdmançılarımızın olimpiadalarda, beynəlxalq səviyyəli mötəbər yarışlarda qazandıqları uğurlar sayəsində Azərbaycan dünyada idman ölkəsi kimi tanınıb. Son illərin idman nailiyyətlərinə nəzər yetirdikdə bir daha şahidi oluruq ki, Azərbaycan bütün beynəlxalq yarışlarda ən yüksək pillələrdə özünü təsdiq edib. Başqa sözlə, idmanın inkişaf etdirilməsi istiqamətində görülən genişmiqyaslı işlər nəticəsində Azərbaycan Avropanın idman mərkəzlərindən birinə çevrilib. Azərbaycan idmançılarının mötəbər beynəlxalq yarışlarda, olimpiadalarda çıxışları da getdikcə daha uğurlu olur. "Nəzərə alsaq ki, bu Yay Olimpiya Oyunlarında Azərbaycan müzəffər ölkə kimi, qalib ölkə kimi iştirak edirdi, idmançılarımız isə müzəffər xalqın nümayəndələri kimi iştirak edirdilər. Əlbəttə ki, bu vətənpərvərlik amili daim diqqətdə olmalıdır", - deyən Prezident diqqətə çatdırıb ki, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində idman nə qədər vacibdirsə, bir o qədər də hərbi hazırlıq və fiziki hazırlıq vacibdir.

Birinci Avropa Oyunlarında Azərbaycan idmançıları 21 qızıl, 15 gümüş və 20 bürünc medal qazanmağa müvəffəq oldular. IV İslam Həmrəyliyi Oyunlarında isə idmançılarımız 75 qızıl, 50 gümüş, 37 bürünc medal qazanaraq komanda hesabında birinci oldular. İdman sahəsində gerçəkləşdirilən dövlət siyasətinin nəticəsi olaraq, idmançılarımızın sorağı mötəbər yarışlardan qalib kimi eşidilir.

Vurğulamaq yerinə düşər ki, ölkəmizdə idmançılar hərtərəfli qayğı ilə əhatə olunur ki, bu da beynəlxalq yarışlarda daha böyük uğurlar əldə etməyə imkan yaradır.

### "QARABAĞ BÖLGƏSİNDƏ, BAKI ŞƏHƏRİNDƏ ƏN MÜASİR İDMAN İNFRASTRUKTURUMUZ VARDIR"

Ölkəmiz keçirilən bütün beynəlxalq idman yarışlarına tam hazır vəziyyətdədir. Belə yarışların keçirilməsi və idmançılarımızın bu və ya digər yarışlarda qalib olması onu göstərir ki, Azərbaycan dünyanın qabaqcıl idman ölkələri sırasında öz layiqli yerini tutub. Ölkəmizin mötəbər idman yarışlarını keçirməsinin arxasında da məhz Azərbaycanın inkişafı, müasir infrastrukturu və təhlükəsiz ölkə olması amili dayanır. Ölkəmizdə müasir tələblərə cavab verən möhtəşəm



idman qurğuları fəaliyyət göstərir. Müasir dövrümüzdə mövcud idman obyektləri yenidən qurulur, eyni zamanda yeniləri inşa edilir. Digər tərəfdən, Azərbaycan müntəzəm olaraq qitə və dünya miqyaslı idman yarışlarına ev sahibliyi edir. Bu gün ölkəmizdə Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Su İdmanı Sarayı, Bakı İdman Sarayı, Atletlər kəndi və bir sıra idman qurğuları var. Vətən müharibəsində düşmən işğalından azad edilmiş rayonlarımızda da idman müəssisələrinin yaradılması nəzərdə tutulur. Mövcud idman obyektləri yenidən qurulur, eyni zamanda yeniləri inşa edilir. Bu da gənclərin idmana olan marağını daha da artırır və mövcud şərait onları daha da ruhlandırır: "Uzun illər bütün bölgələrdə idmanla məşğul olmaq üçün dövlət öz fəaliyyətini aparıb. Hazırda bizim bölgələrimizdə 44 Olimpiya İdman Kompleksi fəaliyyət göstərir və bu idman komplekslərinin bundan sonra da inşası nəzərdə tutulur, müxtəlif bölgələrdə, o cümlədən Qarabağ bölgəsində. Bakı şəhərində ən müasir idman infrastrukturumuz vardır", - deyən Prezident bildirib ki, biz hələ təxminən 10 il bundan əvvəl Bakıda mötəbər Avropa Oyunlarını keçirmişdik: "Ondan sonra İslam Həmrəylik Oyunlarını keçirmişdik və keçən ay Bakıda COP29 beynəlxalq iqlim konfransı da Olimpiya Stadionunun içində və onun ətrafında keçirilmişdir. Yəni, burada da vaxtilə inşa etdiyimiz idman obyektinin - Olimpiya Stadionunun böyük rolu olmuşdu. Çünki əgər vaxtilə biz bunu etməsəydik, bu boyda, bu miqyasda beynəlxalq tədbiri keçirə bilməzdik - 197 ölkə, 76 min qeydiyyatdan keçmiş iştirakçı təmsil olunurdu və qonaqların məmnunluğu xüsusi qeyd edilirdi. Cəmi 10 şikayət var idi, onlar da tezliklə öz həllini tapdı".

### "GƏNCƏ ŞƏHƏRİ MDB OYUNLARININ MƏRKƏZİ OLACAQ"

Azərbaycan Prezidenti çıxışında gələn il Azərbaycanın növbəti böyük idman yarışına ev sahibliyi edəcəyi mesajını da verib. Bu Üçüncü MDB Oyunlarıdır ki, Azərbaycanda keçiriləcək. "Bunun üçün 14 şəhər seçilibdir və əsas oyunlar Gəncə şəhərində keçiriləcək. Gəncə şəhəri MDB Oyunlarının mərkəzi olacaq " - deyə Prezident bildirib. Bildiyimiz kimi, Azərbaycan Prezidenti İlham Əliyev Gəncə şəhər stadionunun yenidən qurulması işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə "Gəncə şəhər stadionunun yenidən qurulması ilə bağlı tədbirlər haqqında" Sərəncam imzalayıb. Gəncə şəhər stadionu Azərbaycanın ən böyük klub stadionudur. Stadion 1959-cu ildə tikilərək istifadəyə verilib. Burada bir sıra məşhur oyunlar keçirilib. Azərbaycan Premyer-liqasının 2015/2016-cı il mövsümündə tamaşaçı sayında rekord vuran "Kəpəz" futbol klubunun çempionat ərzində 18 ev oyununu Gəncə şəhər stadionundan 240 min 650 azarkeş izləyib. Ən çox tamaşaçı 2016-cı il fevralın 14-də XXI turda keçirilən "Kəpəz"-"Qarabağ" görüşündə qeydə alınıb - 20 min 400 tamaşaçı. "Gəncədə yeni stadion inşa edilir və Oyunlara qədər istismara verilməlidir. Eyni zamanda, bir neçə ay bundan əvvəl Gəncədə ölkəmizin ən böyük Olimpiya İdman Kompleksi açılmışdır. Hətta Bakı şəhərində bu boyda və bu qədər funksional standartlara cavab verən Olimpiya Kompleksi olmamışdır. Üçüncü MDB Oyunlarında 7 min idmançının iştirakı gözlənilir. Əgər biz 2015-ci ilin Avropa Oyunları ilə müqayisə etsək, o vaxt təqribən 5000-5500 iştirakçı var idi" - deyə dövlət başçımız bildirib.

Gəncə şəhərində Üçüncü MDB Oyunlarında 7000 iştirakçı, onların komandaları, heyətlərini qəbul etmək şərait yaradılmalıdır. Azərbaycan Prezidenti çıxışında onu da bildirib ki, gələn ildən başlayaraq Gəncə şəhərində çox böyük təmir-bərpa işləri aparılacaq: "Həm şəhər infrastrukturu yenilənəcək, şəhər nəqliyyatı tamamilə yenilənəcək, tarixi binaların bərpası və digər infrastruktur layihələrimiz icra ediləcək ki, bizim qədim şəhərimiz olan, Nizami yurdu olan Gəncə bütün MDB məkanına və daha geniş coğrafiyaya öz gözəlliyini, eyni zamanda, tarixi simasını və müasirliyini təqdim etsin. Əlbəttə ki, biz təbii olaraq bu Oyunlara da hazırlaşırıq. Əminəm ki, bu Oyunların ev sahibi kimi Azərbaycan idmançıları, gənc idmançılar yaxşı nəticələr göstərəcəklər".

Bütün bunlar, Prezident İlham Əliyevin idmanın inkişafına və yetişməkdə olan gənc nəslə göstərdiyi xüsusi diqqət və qayğısının real və əyani təcəssümüdür. Azərbaycanın mötəbər idman yarışlarına müvəffəqiyyətlə ev sahibliyi etməsi bu sahənin, eləcə də həmin idman növlərinin inkişafına, idmanın kütləviliyinin təmin olunmasına xidmət edir.

***Zümrüd BAYRAMOVA***

# Gürcüstan: Yeni ilə iki prezidentlə

## Salome Zurabişvili kreslosunu verməkdən imtina edir və "Gürcü arzusu"nu hədələyir

Gürcüstan sakinləri yanvarın 1-nə keçən gecə prezidentin təkcə bir təbrikinə deyil, eyni anda iki təbrikə qulaq asa biləcəklər. Yeni dövlət başçısı Mixeil Kavelaşvilinin andiçmə mərasimi gələn bazar günü planlaşdırılır. O, bundan əvvəl oktyabrın 26-da keçirilən seçkilərin qalibi olan "Gürcü Arzusu" (GA) partiyasının nəzarətində olan Seçicilər Kollegiyası tərəfindən seçilib. Bu arada hakimiyyətin əsas rəqibi kimi ortaya çıxan hazırkı prezident Salome Zurabişvili postunu tərk etmək fikrində olmadığını deyib. Üstəlik, o, GA-ya ultimatum təqdim edib: ya yeni parlament seçkiləri təyin edəcəklər, ya da müxalifət "hakim rejimin süqutuna" nail olacaq. Salome Zurabişvili bazar ertəsi axşam xalqa videomüraciətində yeni prezidentin andiçmə mərasimindən sonra vəzifəsində qalmaqla bağlı son qərarını açıqlayıb. "Qalıram. Dekabrın 29-na qədər "Gürcü Arzusu" ilə yeni parlament seçkilərinin təyin edilməsi ilə bağlı razılıq əldə olunmasa, biz buna rejimi yıxmaqla nail olacağıq", - deyə hələ hazırkı dövlət başçısı GA-nı ittiham edib. Oktyabrdakı səsvermənin nəticələrini total saxtalaşdırma adlandırıb.

Eyni zamanda, Zurabişvili növbədənkənar seçkilərə hazırlıq üçün müxalifət partiyalarının liderlərinin və ən böyük QHT-lərin nümayəndələrinin daxil olacağı xüsusi Şura yaradıldığını elan edib. Yeni struktur respublika prezidenti yanında fəaliyyət göstərəcək. "Dialoq başqası ilə deyil, mənimlə aparılmalıdır", - deyə Zurabişvili aydınlıq gətirib. O, GA-nın qurucusu, müxalifətin ölkənin kölgə lideri hesab etdiyi Bidzina İvanişvilini danışıqlar üçün öz sarayına dəvət edib. Hazırkı konstitusiyanın müəlliflərindən biri, GA-dan deputat Tengiz Şarmanaşvili



izah edib ki, dövlət başçısının qanunverici orqanı buraxmaq və seçkilər təyin etmək hüququ yalnız bir halda var: əgər parlament hökuməti təsdiq edə bilmirsə. Noyabrın 28-də parlamentin etimad mandatını alan baş nazir İrakli Kobaxidze isə dövlət başçısına açıq şəkildə xəbərdarlıq edib: belə bir fərman verilərsə, o, cinayət törədəcək və həbsxanaya düşəcək.

Dekabrın 29-da parlamentdə Mixail Kavelaşvilinin andiçmə mərasimi keçiriləcək və ertəsi gün o, ölkə vətəndaşlarını dekabrın 31-də Yeni il münasibətilə təbrik etmək üçün prezident sarayına daxil olmalıdır. Amma saraydan çıxmaq fikrində olmayan Salome Zurabişvili də eyni addımı atmağa hazırlaşır. Üç müxalif televiziya şirkəti Salome Zurabişviliyə "qanuni prezident" kimi Yeni il müraciətini yayımlamağa hazırdır. Digər tərəfdən, üç hökumətyönlü telekanal Mixail Kavelaşvilinin təbrikini yayımlamağı planlaşdırır. Nəticədə, hakimiyyət çətin seçim qarşısında qalıb: ya Salome Zurabişvilinin prezidentliyin mühüm atributlarını saxlaması faktını qəbul edin, ya da ona qarşı güc tətbiq edib, Yeni il ərəfəsində müxalifətlə küçə qarşıdurmasının yeni mərhələsinə qədəm qoyub.

deyə həbslə üzləşən prezident əmin edib.

Bu arada "Gürcü arzusu" dövlət başçısının psixi sağlamlığından şübhələnməyə başlayıb. Parlamentdəki hakim partiya fraksiyasının sədri Mamuka Mdinaradze deyir: "Çətin emosional fona görə o, qeyri-adekvat bəyanatlar verir. Onun partiya üzvü Quram Maçaraşvili əmindir ki, Zurabişvili həmişə qeyri-adekvat olub, lakin onun siyasətdəki günləri sayılı olduğundan narahat olmaq üçün heç nə yoxdur.

"Prezidentə qarşı təhdidlər qəbuledilməzdir", - Latviya rəhbəri Edqars Rinkeviç həmkarını dəstəkləyib. O, Zurabişvili ilə telefon danışığı aparıb və o, Gürcüstanın "Avropa yoluna" qayıtmalı olduğunu bildirib. Çexiya Prezidenti Petr Pavel də respublika rəhbərini dəstəklədiyini bildirib. "Zurabişvilinin hüquq-mühafizə orqanları ilə açıq toqquşmaya girəcəyi ehtimalı azdır. O, mükəmməl başa düşür ki, bu döyüşdə qalib gəlməyə gücü çatmır və buna görə də dəmir barmaqlıqlar arxasına düşmək riski var. Bu, 1990-cı illərin əvvəli deyil ki, müdafiə naziri, açıq-saçıq quldur Tengiz Kitovani silahlıların dəstəyi ilə departament binasını zəbt edib istefa verməkdən imtina edə bilərdi", - politoloq Petre Mamradze bildirib. Ekspertin sözlərinə görə, çox güman ki, inauqurasiya ərəfəsində o, Fransaya və ya Aİ-nin başqa ölkəsinə gedəcək, sonra isə müəyyən səbəblərdən geri qayıda bilməyəcək. Yoxsa o, könüllü olaraq iqamətgahı tərk edəcək, bəyan edib ki, bina adamı dövlət başçısı etmir.

Bu arada, "Gürcü arzusu"nun cinayət təqibi ilə hədələdiyi yeganə şəxs prezident deyil. Məsələn, müxalifət partiyasının təsisçisi Lelo ölkənin silahlı qüvvələrini tabe olmamağa çağırıb. Onun sözlərinə görə, ordu Kavelaşvilinin andiçmə mərasimində iştirak etməməlidir. "Bu, bir daha vurğulayır ki, bu adamlar, o cümlədən Xazaradze öz ağalarının tapşırıqlarını yerinə yetirməklə məşğul olan adi bir casusdur... Yəqin ki, yer üzündə heç kim daha aşağı davranışla çıxış etməzdi", - gürcü deputat Archil Gorduladze bildirib.






### Prezident və baş nazir arasında kritik an

Gürcüstanda siyasi böhran davam etdikcə, respublikanın hakimiyyət orqanları Avropaya inteqrasiyanı 2028-ci ilə qədər dondurduqdan sonra daha da pisləşdikcə, ölkə getdikcə daha çox Qərb investisiyalarını itirir. Belə ki, Almaniya 237 milyon avro dəyərində olan layihələrini dondurub və yerli sahibkarlar xidmət sektorunda ciddi tənəzzülün yaşanmasından şikayətlənirlər. Lakin siyasətçiləri hələ də iqtisadi çətinliklər yox, hakimiyyət uğrunda mübarizə maraqlandırır.

Gürcüstanın baş naziri İrakli Kobaxidze bildirib ki, əgər respublika prezidenti Salome Zurabişvili dekabrın 29-da Mixail Kavelaşvilinin andiçmə mərasimi fonunda vəzifəsini tərk etməkdən imtina edərsə, o, həbsxanaya göndəriləcək. "Zurabişvili vəzifəsini tərk etməli olacaq, görəcəyik ki, o, dəmir barmaqlıqlar arxasında həyatını harada davam etdirəcək, ya yox. Düşünürəm ki, onun cinayət məcəlləsinin normalarını pozmamaq üçün kifayət qədər müdrikliyi olacaq... Bir daha təkrar edirəm, 72 yaşlı qadını həbsxanaya göndərmək istəməyən heç kim ola bilməz, amma bu hərəkəti ilə bütün xalqı məhv edəcək. Prezident iqamətgahında onunla kim olacaq", - hökumət başçısı bildirib.

Buna cavab olaraq Zurabişvili heç yerə getmədiyini bəyan edib və özünü ölkədə ali hakimiyyətin yeganə qanuni nümayəndəsi hesab etməkdə davam edib. "Məni müdafiə etmək istəyən insanlara çox minnətdaram... Amma dekabrın 29-dan sonra kim olacağımı bilirəm - prezident, yoxsa... Mən sənin qulun olacağam", - deyə dövlət başçısı tərəfdarlarına müraciət edib. O, həmçinin bildirib ki, Gürcüstanda siyasi böhranı inkişaf etdirməyin iki yolu var: yeni parlament seçkilərinin keçirilməsi ilə bağlı "Gürcü arzusu" ilə kompromis və ya hakim rejimin məhvi. Bununla bağlı o, müxalifət şurası yaradacaq, onun üzvləri yeni səsvermənin hazırlanması üzərində işə başlayacaqlar. Bununla belə, Zurabişvilinin fikrincə, seçkilər "Gürcü arzusu"nun məğlubiyyəti ilə başa çatmalıdır.

"Onlar məni radikallıqda ittiham edirlər, bilmirəm, bunu harada görüblər", Zurabişvili təəccüblənir. Onun sözlərinə görə, həmvətənlərini qorxudan hakim partiyadır. Xüsusilə, "Gürcü Arzusu" əvvəlcə müxalifətin hakimiyyətə gələcəyi təqdirdə Rusiya ilə müharibə riskindən, indi isə vətəndaş müharibəsindən danışır. "Nə biri, nə də digəri olmayacaq. Bu ölkə yeni seçkilərə sülh yolu ilə yanaşacaq, sonra uğurlu və güclü olacaq", -

Paralel olaraq, Almaniyanın Gürcüstandakı səfiri Peter Fişer ölkəsinin respublikada ümumi dəyəri 237 milyon avro olan layihələri dondurduğunu bildirib. Belə ki, Batumidə yaşıl hidrogen, enerji infrastrukturu və su infrastrukturunun maliyyələşdirilməsi dayandırılıb. "Vətəndaş cəmiyyəti və qanunun aliliyinə dəstək davam edir", - Fişer vurğulayıb.

Elə həmin gün Kobaxidze hökumətin Avropa yolundan üz döndərməsindən narahat olan gürcü biznes nümayəndələri ilə dialoq qurmaq üçün 4 saat çalışıb. "Bu, iqtisadiyyatı xilas etmək üçün davam etməmelidir. O, artıq müxtəlif sahələrdə, istər turizm, istər restoran biznesi, istərsə də digər sahələrdə görünür - çox güclü eniş. Biz hamımız birlikdə bu vəziyyətdən çıxmalıyıq", - Gürcüstan Biznes Assosiasiyasının birinci vitse-prezidenti Laşa Papaşvili bildirib.

**V.VƏLİYEV**

# Böyük Qayıdış: Cəbrayıla növbəti köç

*Cəbrayıl şəhəri 49 ailə olmaqla, 253 nəfərə qucaq açdı*



44 günlük Vətən müharibəsində qazandığımız Zəfər ölkəmizin həyatında yeni bir dövrün başlanğıcı oldu. Bu Zəfər regionda sülhün və təhlükəsizliyin təminatında əhəmiyyətli rol oynayaraq yeni reallıqlar yaratmış oldu. Azərbaycan dəfələrlə bəyan edib ki, müharibədən sonra regionda yeni vəziyyət yaranıb. 44 günlük Vətən müharibəsində Azərbaycan 30 ilə yaxın işğal altında olan torpaqları düşmən tapdığından azad etdi və Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən təsdiqlənən mükəmməl hərbi strategiya və taktika döyüş meydanında Azərbaycan Ordusunun "Dəmir yumruq" əməliyyatını sürətlə həyata keçirməyə imkan verdi. Azərbaycan Ermənistanın belini qırmaqla öz torpaqlarını düşmən tapdağından azad etdi. XXI əsrin müharibəsini aparan Azərbaycanın hərbi gücü, qüdrəti 44 günlük müharibə zamanında özünü göstərdi. Xatırladaq ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfər 30 ilə yaxın doğma yurdun həsrətini çəkən keçmiş məcburi köçkün həmvətənlərimizin işğaldan azad edilmiş ərazilərdəki doğma yurd yerlərinə qayıtmasına imkan yaratmış oldu. Köçkünlük həyatı yaşadıqları dövrdə onlar daim dövlətimizin




diqqət və qayğısı ilə əhatə olundular. Bu sahədə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi və Prezident İlham Əliyevin davam etdirdiyi strateji xətt keçmiş məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılmasına, sosial müdafiəsinin, məşğulluğunun təmin olunmasına istiqamətləndi və ardıcıllıqla həyata keçirilir. Artıq davamlı olaraq işğaldan azad olunan ərazilərimizə əzəli sakinlər Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan əzazilərə qayıdırlar. Növbəti köç Cəbrayıl şəhərinə yol alıb. Artıq yola salınan ailələr doğma yurdlarına qovuşub. Belə ki, Cəbrayıl şəhəri 25 dekabr tarixinə 49 ailə olmaqla, 253 nəfərə qucaq açıb. Köçürülən ailələrin Cəbrayıl şəhərində dövlətimizin başçısının göstərişi əsasında yenidən tikilən binalarda məskunlaşması üçün bütün şərait yaradılıb.

## QARABAĞ VƏ ŞƏRQİ ZƏNGƏZURDA 30 MİNƏ YAXIN İNSAN YAŞAYIR

Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 30 minə yaxın insan yaşayır.

Qısa bir zamanda reallaşan infrastruktur layihələr, abadlıq və quruculuq işləri Azərbaycanın iqtisadi gücünü bir daha ortaya qoymuş oldu. Müharibədən çıxmış bir dövlət qısa zamanda Böyük Qayıdışın təntənəsini yaşadı. Ağalı kəndinə əhalinin köçürülməsi Böyük Qayıdışın ilk sorağı oldu. Bu gün Şuşada, Füzulidə, Ağdamda və digər ərazilərimizdə görülən işlər Böyük Qayıdışımızla əzəli sakinlərə qucaq açıblar. Azərbaycan bu gün quruculuq meydanında imza atdığı lahiyələri ilə sözünü deyir. İşğaldan azad olunan ərazilərdə böyük abadlıq-quruculuq işləri davam etdirilir. Bildiyimiz kimi, azad olunmuş Qarabağ və Şərqi Zəngəzur yaşıl enerji zonası elan edilmişdir. Bu və ya digər layihələr çox böyük perspektivə malikdir. Təhlükəsiz yaşayışı və dövlət idarəetməsini təşkil etmək, şəhər, qəsəbə və kənd yaşayış məntəqələrinin tikintisini və dayanıqlı infrastrukturla təminatını həyata keçirmək, müasir standartlara uyğun xidmətlərin yaradılmasını təmin etmək və s. prioritet məsələ olaraq qarşıya qoyulub və əhalinin doğma torpaqlarına geri qayıdışının yüksək səviyyədə təminatı istiqamətində davamlı layihələr həyata keçirilir. İnkişaf strategiyası nəticəsində dünya miqyasında sabit və dayanıqlı iqtisadiyyatı, eləcə də böyük maliyyə resursları olan, qlobal enerji təhlükəsizliyinin təminatında strateji rol oynayan Azərbaycan postpandemiya və postkonflikt dövründə keyfiyyətcə yeni olan və 2022-2030-cu illəri əhatə edən strateji inkişaf mərhələsinə daxil olub. Uğurla həyata keçirilən sosial-iqtisadi islahatlar milli iqtisadiyyatın davamlı inkişafını, müasir sosial-iqtisadi infrastruktur quruculuğu proseslərinin sürətlənməsini, insan kapitalının davamlı inkişafını təmin edir.

Xatırladaq ki, Cəbrayıl rayonunun işğalı zamanı rayon 1 şəhər, 4 qəsəbə və 97 kənddən ibarət idi. 2016-cı ilin aprel döyüşlərində ordumuz düşmən qüvvələrini Cəbrayıl rayonunun Lələtəpə yüksəkliyindən və ətraf ərazilərdən geri çəkilməyə məcbur etdilər. Vahid Azərbaycan rəmzi kimi qəbul edilən Xudafərin körpüsü də Cəbrayıl rayonunda yerləşir. Bu körpü haqqında ilk məlumat VI-II-IX əsrlərə aiddir. Xudafərin körpüsü Cənubi Azərbaycanla Şimali Azərbaycanın orta əsr şəhərlərini birləşdirən, karvan yolunun üstündə tikilib. O, həm də mühüm hərbi-strateji əhəmiyyət daşıyır. 2020-ci ilin oktyabrın 18-i də tariximizə daha bir şanlı gün kimi yazıldı. Cəbrayıl rayonunda yerləşən tarixi Xudafərin körpüsünün üzərində 27 il sonra üçrəngli Azərbaycan bayrağı ucaldıldı. Vətən Müharibəsində böyük zəfərlərə imza atan müzəffər ordumuz tarixi abidəni öz sahibinə qovuşdurdu.

Azərbaycanın müharibədə qalib gəlməsindən altı gün sonra, noyabrın 16-da Azərbaycan Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva işğaldan azad olunan Cəbrayıl rayonuna səfər etdilər. Cəbrayıl şəhərində və Xudafərin körpüsündə Azərbaycan bayrağını qaldırdı. 2020-ci il noyabrın 26-da "Cəbrayılın azad olunmasına görə" medalı təsis edildi. Cəbrayıl uğrunda gedən döyüşlərdə iştirak etmiş 12523 hərbi qulluqçu medalla təltif edildi. Cəbrayıl şəhərinin Baş planına əsasən, müasir Cəbrayıl şəhəri özü və yaxınlıqdakı 5 kəndi əhatə edəcək və şəhərin ümumi ərazisi 625 ha təşkil edəcək. Layihədə şimaldan cənuba doğru uzanan Çaylaqçay ətrafında şəhərin mərkəz hissəsində təklif olunan "yaşıl zolaq" şəhərin əsas onurğası kimi verilib. Qeyd edək ki, rayon ərazisində bir çox tarix-memarlıq abidələrinin, o cümlədən Xudafərin körpüsünün yerləşməsi şəhərin gələcək özünəməxsus memarlıq görünüşünün yaradılmasında xüsusi rol oynayacaq.

## 2026-CI İLİN SONUNADƏK 3 800 NƏFƏR ŞƏHƏRƏ YERLƏŞƏCƏK

Şəhərin bərpası və inkişafı üçün 4 mərhələ nəzərdə tutulur. 2026-cı ilin sonunadək təqribən 3 800 nəfərin şəhərdə yerləşəcəyi qeyd olunur, 2040-cı ilin sonuna qədər Cəbrayıl şəhərində 15 000 sakinin yaşayacağı proqnozlaşdırılır. Baş planda yaşayış üçün 143 hektar ərazi ayrılıb və burada az, orta mərtəbəli binaların, həyətyanı sahəyə malik fərdi yaşayış evlərinin inşası nəzərdə tutulub. Əhalinin 82%-nin orta və azmərtəbəli çoxmənzilli binalarda, 18%-nin isə fərdi evlərdə yaşayacağı planlaşdırılıb. Yaşayış evlərinin layihələndirilməsi zamanı şəhər ərazisindən səmərəli istifadə və müasir memarlıq həlləri əsas götürülüb.

Baş planların hazırlanması zamanı məskunlaşma sisteminin formalaşdırılmasında əhalinin məşğulluğunun davamlılığı əsas götürülüb. Şəhərin məşğulluq imkanları rayon ərazisindən keçən beynəlxalq əhəmiyyətli magistral yollar və zəngin təbii ehtiyatlar nəzərə alınmaqla proqnozlaşdırılıb. Beləliklə, şəhərin iqtisadi inkişafında xidmət və sənaye sektorlarının böyük rol oynayacağı, kənd təsərrüfatı sahəsinin isə digər yaşayış məntəqələrində daha çox inkişaf edəcəyi göstərilib. Baş planda ictimai-işgüzar zona üçün 22.87 ha ərazi ayrılıb. Burada inzibati və ofis binaları, mərkəzi meydan, mədəniyyət, ictimai-iaşə və turizm obyektləri yerləşdiriləcək. Şəhərin Baş planı hazırlanarkən nəqliyyatın planlaşdırılması zamanı insanyönümlü şəhər və təhlükəsiz hərəkət prinsipləri əsas götürülüb. Burada yol şəbəkəsi piyada keçidi və velosiped yollarının, ictimai nəqliyyatın üstünlük təşkil etdiyi formada layihələndirilib. Şəhərdaxili yol profillərində təxminən 60 km uzunluğunda piyada və velosiped yollarının salınması planlaşdırılıb. Cəbrayıl şəhərində küçə-yol şəbəkəsinin ümumi uzunluğu 45 km-dən çox olacaq.

Sənəddə əhalinin artım tempi nəzərə alınmaqla sosial tələbata uyğun ən müasir təhsil və səhiyyə ocaqları layihələndirilib. Belə ki, şəhər ərazisində öz doğma torpaqlarına qayıdacaq cəbrayıllı 1880 şagirdin təhsil alacağı müasir şəhərsalma standartlarına uyğun 3 tam və orta təhsil müəssisəsi, 960 uşaq üçün nəzərdə tutulan 4 məktəbəqədər təhsil müəssisəsi, mərkəzi rayon xəstəxanası, poliklinika, mədəniyyət mərkəzi, inzibati mərkəz, idman komplekslərinin inşası planlaşdırılıb. Baş plana əsasən, ümumi yaşıllıqların sahəsi 110 ha təşkil edəcək, bununla da şəhər ərazisinin 18%-i yaşıl zonalardan ibarət olacaq.

## ƏSAS HƏDƏF BÖYÜK QAYIDIŞ STRATEGİYASININ REALLAŞDIRILMASIDIR

Cəbrayıl şəhərində görülən işlər sırasında Mehdi Mehdizadə adına 960 şagird yerlik tam orta məktəbin binası istifadəyə verilib. Ərazisi 2,7 hektar olan məktəbdə 40 sinif otağı və 5 inzibati otaq var. Şagirdlərin yüksək səviyyədə təhsil almaları üçün sinif otaqları zəruri dərs vəsaitləri ilə təchiz edilib. Təhsil ocağında, həmçinin kimya, fizika, biologiya laboratoriyaları, texnologiya və informatika otaqları, 4 STEAM otağı, çağırışaqədərki hazırlıq kabineti, kitabxana, akt və idman zalları, yeməkxana yaradılıb. Cəbrayıl şəhərinin birinci yeni yaşayış məhəlləsi istifadəyə verilib. Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında yeni müəssisələrin təməlləri qoyulub.

Bugünki günümüzün reallığı, əsas hədəf Qarabağın bərpası və Böyük Qayıdış strategiyasını reallaşdırılmasıdır. Azad edilən şəhər və kəndlərimizin yenidən qurulması, öz yurd-yuvalarından didərgin düşən soydaşlarımızın evlərinə qaytarılması əsas məsələlərdəndir. Əlbəttə ki, bu gün işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri planlı şəkildə həyata keçirilir. Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir və bu ərazilərdə reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, əzəli torpaqlarımız yenidən dirçəlir, inkişaf edir, geniş abadlıq və quruculuq meydanına çevrilib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# XANKƏNDİ

## -Xanın kəndi azadlığın işığında

***Prezident İlham Əliyev: Birinci dəfə Azərbaycan xalqı mənə böyük etimad göstərəndə, 20 il bundan əvvəl Prezident kimi əziz xalqıma söz vermişdim: əlimdən gələni edəcəyəm ki, biz ərazi bütövlüyümüzü bərpa edək. Həm seçkilər ərəfəsində, həm andiçmə mərasimində doğma xalqıma söz vermişdim ki, gün gələcək biz Azərbaycanın Dövlət Bayrağını işğal altında olan torpaqların hər bir guşəsində qaldıracağıq. Xatırlayıram, beş il bundan əvvəl - 2018-ci ilin sentyabrında Bakının Azadlıq meydanında keçirilmiş hərbi paradda çıxış edərkən demişdim ki, gün gələcək Azərbaycan Bayrağı bu gün hələ də işğal altında olan bütün torpaqlarda qaldırılacaqdır və bu gün gəldi.***

2023-cü il noyabrın 8-də Xankəndi şəhərində Vətən müharibəsində əldə edilən Zəfərin üçüncü ildönümünə həsr olunan hərbi paradı ötən 20 ilin nəticəsi kimi qürurla qarşıladıq. Və elə paradı seyr edə-edə də bu şəhəri -xanların şəhərini necə olmuşdu ki, gədələr zəbt etmişdi düşüncələrinə daldıq. Bu şəhər işğal oluna bilməzdi, lakin nankor erməni buna nail olmuşdu. Çünki bu şəhər də Qarabağın və Şərqi Zəngəzurun digər əraziləri kimi onlara hədiyyə verilmişdi, qurban getmişdi, satılmışdı, bilmirəm, hər nə isə, ancaq işğal olunmamışdı. Çünki bu şəhərin işğal olunmasına onun coğrafi mövqeyi də imkan verə bilməzdi, xanlara məxsus olması da. İki-üç gədə-güdənin alqı-satqısının qurbanı olmuşdu bu şəhər. Bu xanların şəhəri 1991-ci il dekabrın 26-da Ermənistan Silahlı Qüvvələri və Qarabağdakı erməni separatçıları tərəfindən işğal ediləndən sonra hələ yaradılan qondarma Dağlıq Qarabağ Respublikasının paytaxtı da olmuşdu.










### Xanın kəndi Xankəndi

Xankəndi digər Azərbaycan şəhərlərinin əksəriyyətindən nisbətən cavan olması ilə fərqlənir. Arxiv sənədlərinə görə şəhər XVIII əsrin axırlarında o dövrdə müstəqil Azərbaycan dövlətlərindən biri olan Qarabağ xanlığı başçılarının-xanların istirahəti üçün yaşayış məskəni kimi salınır. Xanların fəaliyyətinə maksimum şərait yaradılması üçün məskən xanlığın paytaxtı Pənahabadın (indiki Şuşanın) 10 kilometrliyində, nisbətən dağ ətəyində salınır. Bu zaman onun xanlığın digər vacib şəhər və kəndlərinə, Ağdama, Xocalıya, Malıbəyliyə, Kərkicahana və digərlərinə yaxın olması da əsas götürülüb. Belə ki, yeni yaşayış məntəqəsi kimi digər yaşayış məntəqələrində də ancaq yerli əhali, Azərbaycanlılar yaşayırdı. İlk illər yeni yaşayış məskənində ancaq xan ailəsi və onun yaxınları yaşadığından el arasında "Xanın kəndi" kimi tanınır. Qısa bir müddətdən sonra qəsəbə Xankəndi adını alır.

Qarabağ xanlığı Rusiyaya birləşdirildikdə Xankəndi axırıncı Qarabağ xanı Mehdiqulu xanın arvadı Pəricahan bəyimə bağışlanmışdı. Sovet hakimiyyəti qurulduqdan sonra Azərbaycan SSR Mərkəzi İcraiyyə Komitəsi 1923-cü il iyulun 7-də "Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması haqqında" dekret verdi. Həmin dekretlə Xankəndi vilayətin mərkəzi elan olundu. 1923-cü ilin sentyabrında şəhər Stepan Şaumyanın adı ilə "Stepanakert" adlandırılmışdır. 1991-ci ildə Azərbaycan SSR Ali Sovetinin qərarı ilə şəhərin əvvəlki-"Xankəndi" adı bərpa edilmişdir.

İnzibati cəhətdən Xankəndi şəhər əhatə dairəsinə Xankəndi şəhəri və Kərkicahan şəhər tipli qəsəbəsi daxildir. Sahəsi 8 km?-dir. Paytaxt Bakıdan 329 km uzaqlıqda yerləşir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin 1 yanvar 2012-ci il tarixinə olan rəsmi məlumatına əsasən Xankəndi şəhərinin 53,3 min nəfər, Kərkicahan qəsəbəsinin isə 2 min nəfər əhalisi vardır. İkinci Qarabağ müharibəsinin nəticələrinə əsasən imzalanmış 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata uyğun olaraq Xankəndi şəhərində həmin tarixdən Rusiya sülhməramlı qüvvələrinin mərkəzi qərargahı yerləşdirilmişdir.

### Antiterror tədbiri ilə xilas olan Xankəndi

2020-ci ildən ötən 3 il ərzində Azərbaycan Xankəndidə yaşayan erməni əhalinin təhlükəsizliyi, burada rahat yaşaması üçün dəfələrlə yol göstərdi. Burada yaşayan erməni əhali isə, sözsüz, bu təkliflərlə razılaşardı. Lakin xunta rejimi, separatçı qüvvələr necə ki, 30 ildə erməni xalqını əllərində oyuncaq olaraq öz mənafeləri üçün istifadə edirdi, onların hesabına Azərbaycan torpaqlarında at oynadırdı, İkinci Vətən müharibəsindən sonra da niyyətlərindən əl çəkmədilər. Erməni əhalini inandırmağa çalışdılar ki, bu torpaqlarda sizin üçün yeni həyat qurulacaq, burada yağ-bal içərisində yaşayacaqsınız. Səsini çıxaranın isə ölümünə səbəb oldular. Çünki bu separatçıların damarlarından qan yox, Azərbaycan xalqına qarşı kin, nifrət axır. Onlar illərdir ki, bu iki xalqın arasına nifaq toxumu səpib, cücərdib, hər il biçib "məhsulunu" götürməklə məşğuldurlar.

Elə məhz bu kimi iyrənc niyyətlərinə görə də 44 günlük Vətən müharibəsindəki uğursuzluqlarını da nəzərə almaq istəmədilər. Düşündülər ki, yenidən güc toplayıb dirçələ, Azərbaycan torpaqlarına yenidən sahib çıxa bilərlər. Unutdular ki, bu torpaqları axı əslində işğal etməyib, hazır tikənin sahibi olublar. Həmin illərdən isə 30 ildən artıq zaman keçib. 44 gündə 30 illik barrikadalarının yerlə yeksan olunduğunu, "böyük Ermənistan" xülyasının parça-parça edilib Azərbaycan əsgərinin ayağının altına səpələnməsini unutdular. Unutduqca da Ermənistan-Azərbaycan münasibətlərini tərsə doğru çəkdilər.

***Ardı Səh. 11***

# XANKƏNDİ

## -Xanın kəndi azadlığın işığında

Əvvəli səh. 10

Erməni xalqı ayağa qalxdı. Təslim olduğunu, qonşunun torpaqlarının özünə qaytarılmasını, qan tökülməsinin dayandırılmasını tələb etdi. Hətta Ermənistan dövlət rəsmisi bu torpaqların Azərbaycana məxsus olduğunu bəyan etdi. Lakin separatçı qüvvələr-90-cı illərin saqqallılarının davamçıları bir oldular, xalq, dövlət bir, lakin bu böyük qüvvə terror qruplaşmasının qarşısını ala bilmədi. Ortada isə əziyyət çəkən xalq oldu. Həm də hər iki xalq.

Lakin bircə günün içərisində peşman oldular. Gördülər ki, onları illərdir, başdan çıxaran terrorçu qruplaşma imiş. O qruplaşma ki, onlar bu iki xalq arasında münaqişə üçün təlim alıb, silahlandırılıb, bunun üçün maliyyələşdiriliblər. İki xalq arasında nifaq toxumu əkmək üçün kimlərinsə quluna çevriliblər.

Sentyabrən 19-da bu terrorçulara qarşı Azərbaycanın 23 saat ərzində həyata keçirdiyi antiterror tədbiri zamanı yenidən yerlə yeksan olan silah-sursat və texnikalarına baxdıqca, bir daha səhv yolda olduqlarını təsdiqlədilər və bu zaman yenidən ağ bayraq qaldırdılar.

Elə bir gülünc vəziyyətə düşdülər ki, bəlkə də dünyada belə hadisə yaşanmamışdı. Məxsus olduqları dövlət onları tanımadığını, haqlarında nə cəza lazımsa, görülməsini bildirdi. Beləliklə, ikitərəfli danışıqlara getməyə, Qarabağda və Şərqi Zəngəzurda yaşamaq üçün nələrə boyun əyməli olduqlarını qəbul etmək üçün Yevlağa gəlməyə razı oldular. Gəldilər və onların qarşısına qoyulan tələblərə razı oldular.

Baxmayaraq ki, onların təklifi də nəzərə alındı, hətta qısa zamanda elektrik enerjisinə olan tələbatları də ödəndi, lakin onlar qalmağı yox, getməyi məsləhət bildilər və Xankəndini tərk etdilər. Burada ermənilərin düşündüyü yeganə bir məsələ ola bilərdi: dalaşanda elə dalaş, barışmağa üz saxla. Görünür, ermənilər bu üzü saxlamadıqlarını aydın dərk etdikləri üçün Xankəndini öz istəkləri ilə tərk etdilər. Beləliklə, Xankəndi birgünlük antiterror əməliyyatının nəticəsi olaraq xilas oldu, anası Azərbaycana qovuşdu.

### Zəfərimizin 3-cü ilində yeni Zəfər sevinci

2020-ci ilin 44 günlük savaşından sonra bəs Xankəndi, Xocalı, Xocavənd, deyənlər, əldə etdiyimiz böyük Zəfərə kölgə salmaq fikrində olanlar da oldu. Lakin bunu dərk etmək o qədər çətin deyildi ki, elə bu Zəfər Qarabağ və Şərqi Zəngəzurda digər torpaqlarımızın da azadlığına aparan bir yoldur. Sadəcə bizim zamana ehtiyacımız var idi. Zaman yetişməli, nəzərdə tutulmuş proseslər bir-birinin ardınca həyata keçirilməli idi ki, digər




torpaqlarımızın da azadlığını görə bilək. Belə də oldu. Dövlətimizin başçısının özünün də dediyi kimi, nəyi nə vaxt, necə etməyi gözəl bilməsi sübut etdi ki, O, bir Prezident kimi dediyi sözü həyata keçirməyi də gözəl bilir. Hadisələrin axarı elə bir sonluqla nəticələndi ki, bir vaxtlar boş-boş danışanların səsini birdəfəlik batırdı. Böyük Zəfərimizin 3-cü ildönümü ərəfəsində Xankəndi də, Xocalı və sair azad olundu. Həm də bunu günlər yox, saatlar həll etdi.

Ötən il Zəfər Günü Xankəndidə keçirilən parad 3 il öncəki Qələbənin fonunda yeni Zəfərimizin qürurunu yaşamağı nəsib etdi bizə. Həmin gün qürur və sevincimizin həddi-hüdudu yox idi. Bir tərəfdən həmin torpaqların da anası Azərbaycana qovuşmasını, digər tərəfdən isə dövlətimizin başçısının və milli ordumuzun xalqa yaşatdığı bu hissləri bayram etdik. Torpaqları satanlar kimi, alanları da görməyimiz isə nifrətlə məhəbbət arasındakı 30 illik yolda olub-keçənləri xatırlatdıqca, bu günü bizə bəxş edənlərə sevgimizi artırır, eyni zamanda şəhid və qazilərimizin Vətən uğrunda göstərdikləri şücaətdən, bir də düşmənin xislətindən söhbət açırdı.

Tədbirdə dövlətimizin başçısının nitqindəki bu nüanslar isə sevinən, lakin illərlə vurulan zərbələrdən asanlıqla sağalmayan ürəyimizdən tikanı çəkirdi: Dörd il bundan əvvəl, bax, qarşıdakı Xankəndi şəhər stadionunda Ermənistanın baş naziri çıxış edərkən təkəbbürlə demişdi: "Qarabağ Ermənistandır və nöqtə". Biz ona, onun kimilərinə və onların arxasında duranlara döyüş meydanında qan tökərək, şəhidlər verərək göstərdik ki, o, səhv yolda idi. Biz göstərdik ki, Qarabağ Azərbaycandır, döyüşərək, vuruşaraq, heç nəyə baxmayaraq və bu gün hər kəs bilməlidir ki, bizimlə bundan sonra heç kim zarafat etməsin. Ermənistan rəhbərliyi əgər revanşist fikirlərlə yaşayırsa, Ermənistanın arxasında dayanan manipulyasiyaya öyrəşmiş ölkələr əgər yenə də Azərbaycan üçün hansısa məkrli plan qurursa, o, bugünkü parada bir nəzər yetirsin. Bilsin ki, burada mindən çox igidimiz düzülübdür və bizim 100 mindən çox onlar kimi igidlərimiz var və heç bir qüvvə bizi təhdid edə bilməz. Biz istənilən müstəvidə döyüşə hazırıq, siyasi, lazım olarsa, hərbi meydanda bunu göstərmişik. XXI əsrdə heç bir ordu bizim qədər peşəkarlıq, fədakarlıq göstərməmişdir. Heç bir xalq öz doğma torpağını bu qədər əziz tutub uğrunda ölümə getməyə hazır olmamışdır. Bunu biz hamımız yaxşı bilirik, bunu dünya da bilsin.

### Xankəndi azadlığın işığında

Dekabrın 26-nı uzun illər Xankəndinin işğal olunduğu gün kimi xatırlamışıq. Ağlamışıq, kədərlənmişik, işğal altında olan yurd yerimiz üçün burnumuzun ucu göynəyib. Əzizlərimizi yada salmışıq, torpaq həsrəti ürəyində düyün bağlamış dünyadan köçənlərimiz də qərib yurd yerimiz kimi sinəmizi göynədib.

Lakin bu gün onların ruhu şaddır. Çünki biz doğma torpaqlarımıza qayıtmışıq. Xankəndi də digər azad edilmiş yurd yerlərimiz kimi abadlaşdırılır. Xankəndi separatçılardan azad olunan kimi oraya Xanın kəndi görünüşünə qaytarılır. Xankəndidə artıq Qarabağ universiteti fəaliyyət göstərir. Digər obyektlərdən isə istifadəyə veriləni də var, tikintisi davam etdirilənləri də. Beləliklə, Xankəndi azadlığının işığında öz görkəminə qayıdır.

Qürur duyuruq! Zəfərimizlə, müzəffər sərkərdəmizlə, şəhid-qazilərimizlə, əsgər-zabitlərimizlə, vətənpərvər insanlarımızla. Bir də onunla ən çox qürur duyuruq ki, çoxəsrlik tariximizin səhifələrinə 270 ildən artıq bir zamandan sonra yeni bir qəhrəmanlıq salnaməsi yazıldı.

*Mətanət Məmmədova*

# Ailə qurulmasında ağıl və məntiqlə yanaşma, yoxsa sevgi?

"Ailə qurulması, hər bir insanın həyatında ən mühüm və dərin qərarlardan biridir. Bu qərar, yalnız fərdi hisslərə deyil, həm də məntiqə, uyğunluğa və gələcəkdəki həyat planlarına əsaslanmalıdır". Bu sözləri SİA-ya açıqlamasında Sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib.



O bildirib ki, lakin, gənc yaşlarda insanlar çox vaxt duyğusal yanaşmalarla, hisslərə əsaslanaraq ailə qururlar: "Bu dövr adətən 18-26 yaş aralığına təsadüf edir. Bu yaşlarda gənclər, hələ də öz şəxsiyyətlərini tam olaraq formalaşdırmamış, emosional və hormonel dəyişikliklər yaşamaqdadırlar. Bu səbəbdən, sevgiyə əsaslanaraq ailə qurmaq daha çox qarşısına çıxan hər hansı bir hissi qəbul etmək və anın həyəcanına aldanmaq kimi görünə bilər. Bu yaş dövründə, bəzi gənclər plansız və şüursuz şəkildə evlənir, yalnız qarşı tərəfin xarakterini, insani keyfiyyətlərini və ailənin sosial statusunu nəzərə almadan bu addımı atırlar. Bu vəziyyət, bazardan alınan bir qarpız kimi, bəzən uğurlu ola bilər, bəzən isə gözlənilməz çətinliklərlə nəticələnə bilər. Yəni, ilk növbədə bu cür evliliklərdə müvəffəqiyyət və ya uğursuzluq çox vaxt təsadüfi xarakter daşıyır.

Amma yaş irəlilədikcə, insanlar daha çox məntiqə və həyatda əldə etdikləri təcrübələrə əsaslanmağa başlayırlar. 25 yaşdan yuxarı şəxslər artıq yalnız sevgi deyil, həm də qarşı tərəfin xarakterini, davranışlarını, sosial statusunu və ailə dəyərlərini nəzərə alaraq ailə qururlar. Bu yaş dövründə insanlar daha düşünülmüş və planlı addımlar atırlar, çünki həyat təcrübəsi və dünyagörüşü artmış olur. Belə şəxslər daha az ehtimalla sevgiyə əsaslanan, qeyri-şüurlu və məntiqsiz qərarlar verirlər. Onlar, qarşı tərəflə münasibətlərini uzunmüddətli perspektivdə necə davam etdirəcəklərini dərk edirlər. Bu cür evliliklərdə müvəffəqiyyət nisbəti daha yüksək olur, çünki bu yaşda insanlar qarşı tərəfi yalnız sevgiylə deyil, həm də məntiq və uyğunluq baxımından qiymətləndirirlər.

Tədqiqatlar və sosial müşahidələr göstərir ki, sevgi ilə qurulan ailələrdə, xüsusilə gənc yaşlarda, çox zaman qarşılıqlı anlaşılmazlıqlar, uyğunsuzluqlar və münasibətlərdəki azalma baş verir. Sevgi, zamanla dəyişən və bəzən itirilən bir hissdir. Əgər sevgi tək başına ailə qurulmasına əsaslanarsa, zaman keçdikcə münasibətlər soyuqluq və anlaşılmazlıqla üzləşə bilər. Bu, bir çox halda qarşılıqlı hörmətin və münasibətlərin dəyişməsinə, bəzən isə boşanmalara gətirib çıxarır".

Onun sözlərinə görə, buna qarşı 25 yaş və daha yuxarı yaşlarda evlənən insanlar artıq daha planlı və məsuliyyətli yanaşır: "Onlar yalnız emosional deyil, həm də rasional qərarlar verirlər. Onlar üçün ailə qurmaq yalnız sevgini deyil, həm də sosial, iqtisadi və psixoloji uyğunluğu tələb edir. Bu, ailə həyatının daha dayanıqlı və uzunmüddətli olmasını təmin edir.

Əlbəttə, sevgi və məntiq arasında bir balans tapmaq çox vacibdir. Həm sevgi, həm də ağıl bir ailənin sağlam təməlini qura bilər, lakin yalnız sevgiyə əsaslanaraq qurulan bir ailənin möhkəmliyi şübhə doğura bilər. Sevgi, münasibətlərin başlanğıcında əhəmiyyətli olsa da, uzunmüddətli bir ailə həyatı üçün daha çox uyğunluq, qarşılıqlı hörmət və gələcək planlarının uyğunluğu əsas şərtlərdən biridir. Nəticə olaraq, sevgi və məntiqin düzgün balansı, bir ailənin sağlam və uzunmüddətli olması üçün vacibdir. Gənc yaşlarda sevgi əsaslı qərarlar verilə bilər, amma yaş artdıqca, insanın məntiqi və həyatda qazandığı təcrübə daha ön plana çıxmalı, evliliklər daha planlı və düşünülmüş şəkildə qurulmalıdır".

*Söylü Ağazadə*

# "Gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsində idmanın rolu danılmazdır"

"Bədən tərbiyəsi və idman insanların sağlamlığında, mənəvi zənginliyində çox mühüm əhəmiyyətə malikdir". Bu sözləri SİA-ya verdiyi açıqlamasında Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri, millət vəkili Tahir Rzayev deyib. Komitə sədri qeyd edib ki, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsində də idmanın əhəmiyyəti, rolu qaçılmazdır və məhz buna görə də Azərbaycanda idmanın inkişafına böyük





qayğı və diqqət göstərilir. "Azərbaycan Prezidenti cənab İlham Əliyev idman yarışlarının təşkilinə, yeni Olimpiya İdman komplekslərinin qurulmasına, gənclərimizin idman tədbirlərində yaxından iştirak etməsinə böyük önəm verir və bu sahənin inkişafı üçün əhəmiyyətli tədbirlər həyata keçirməkdədir. Məhz buna görə də son illərdə Azərbaycan idmançılarının beynəlxalq əhəmiyyətli yarışlarda qazandıqları uğurlar artır və onlar dövlətimizin bayrağını zirvələrə ucaldırlar. Cənab Prezident 2024-cü ilin idman yekunlarına həsr olunmuş mərasimdə çıxışı zamanı Azərbaycan idmançılarının qazandıqları uğurlara, eləcə də idmanın cəmiyyətin həyatında oynadığı rola çox böyük qiymət vermiş və bildirmişdir ki, keçən il idmançılarımız beynəlxalq yarışlarda 1700 medal qazanmışlar və əlbəttə ki, bu da idmanın yüksəlişi, idmana göstərilən qayğının ifadəsidir.

Bu gün Azərbaycan idmanı nəinki mərkəzdə, iri şəhərlərdə, eləcə də regionlarda inkişaf etdirilir. 44 Olimpiya İdman kompleksinin qurulması, eləcə də yeni geniş ölçülü mini idman stadionlarının, məşq zallarının tikintisi deməyə əsas verir ki, Azərbaycan idmanı gündən-günə inkişaf etdiriləcək və bu bir çox beynəlxalq əhəmiyyətli yarışların Azərbaycanda keçirilməsinə zəmin yaradır. Məlum olduğu kimi, beynəlxalq əhəmiyyətli idman oyunları, futbol, voleybol, gimnastika və digər növlər üzrə Azərbaytcanda çox mühüm yarışlar uğurla təşkil edilmiş və bu yarışlarda Azərbaycan idmançıları da öz məharətlərini ortaya qoymuş, qələbələrlə azarkeşləri, insanları sevindirmişlər.

Azərbaycan Prezidenti çıxışında ölkədə idmanın böyük potensiala malik olduğunu və bu sahədə keçirilən tədbirlərin səmərə verdiyini dönə-dönə qeyd etmişdir. Həm də qazanılan qələbələrə, idmançılara öz hörmətini, ehtiramını ifadə etmiş, onların uğurları ilə xalqımızın fəxr etdiyini nəzərə çatdırmışdır. Ölkə rəhbəri bildirmişdir ki, bu gün bütün sahələrdə uğurlar davam edir və idman sahəsində də biz nailiyyətləri daha da artırmalı və möhkəmləndirməliyik.", - deyə Tahir Rzayev bildirib.

***İnam Hacıyev***

# Yeni ildə hansı təhlükəsizlik tədbirləri görülməlidir?

*EKSPERT RƏYLƏRİ*

Məlumdur ki, Yeni ilə sayılı günlər qalıb. Bəs, bu məqsədlə hansı təhlükəsizlik tədbirləri görülməlidir? SİA mövzu ilə bağlı ekspertlərin fikirlərini öyrənib. Həyat fəaliyyətinin təhlükəsizliyi üzrə ekspert Orxan Musayev: "Yeni il ərəfəsində təhlükəli vəziyyətlə qarşılaşmamaq üçün riayət ediləsi bəsit təhlükəsizlik qaydaları mövcuddur. Mənzillərdə elektrik və qazdan istifadə tələbatının artmasına görə onlardan istifadə edərkən nəzarət artırılmalı və diqqətdən kənarda saxlanılmalıdır. Elektrik naqillərinin normadan artıq yüklənilməsinə yol verilməməli, qaz təsərrüfatı ilə bağlı hər hansısa bir qazsızma ehtimalını dəm qazı zəhərlənmə ehtimallarını nəzərdən keçirib onlara qarşı profilaktik tədbirlər görülməlidir.

Evdə mütəmadi havalandırma təşkil olunmalı və elektrik cihazları fasilələrlə istifadə olunmalıdır. Yolkaların bəzədilməsi və istifadəsi zamanı gecə onların işıqlarının yanılı saxlanılması və nəzarətsiz saxlanılaraq mənzilin tərk edilməsi yolverilməzdir. Mənzillərdə yandırılan şamların və yolkaların üzərində bəzədilmək üçün istifadə olunan bəzədilmə əşyalarının asan yana bilən, yanğına qarşı həssas olan maddələrlə, materiallarla təmasda olmaması nəzərdən keçirilməlidir. Xüsusilə Yeni il ərəfəsində yanğın təhlükəsizliyi məsələlərinə diqqətlə yanaşılmalıdır. Çünki Yeni ildə yanğın hadisələrinin və yaxud qaz sızması nəticəsində partlayış hadisələrinin sayında artım müşahidə olunmaqdadır.

Sosial məsələlər üzrə ekspert İlkin Hüseyn: "Yeni il bayramı, şənlik və əyləncə dolu olsa da, yanğın, fişəng və digər təhlükəli hadisələrə səbəb ola biləcək risklər də mövcuddur. Bu səbəbdən, özümüzü və ətrafımızdakıları qorumaq üçün bir neçə vacib təhlükəsizlik tədbiri görməliyik. İlk növbədə, yalnız müvafiq icazə verilən yerlərdə fişəng və pirotexniki maddələrdən istifadə etmək lazımdır. Fişəngləri əl ilə tutmaqdan və onları yaxın ərazilərə atmaqdan çəkinmək vacibdir. Ayrıca, fişəng istifadə etmədən əvvəl onun təhlükəsizlik qaydalarını diqqətlə oxumaq lazımdır. Yanğınların qarşısını almaq üçün dekorativ işıqların və elektrik avadanlıqla-



rının vəziyyətini mütəmadi olaraq yoxlamaq gərəkdir. Qısaqapanma və ya elektrik nasazlıqlarının qarşısını almaq üçün yalnız sertifikatlı və təhlükəsiz işıqlardan istifadə edin. Evdə yanğınsöndürən və ilk yardım dəstələrinin olması həyati əhəmiyyət kəsb edir. Eyni zamanda, açıq hava məkanlarında fişəng istifadə edərkən küləkli havadan çəkinmək lazımdır. Əgər hər hansı bir yanğın baş verərsə, təcili çıxış yollarının olduğu yeri əvvəlcədən müəyyənləşdirin. Uşaqları və ev heyvanlarını fişənglərdən uzaq tutmaq, onların təhlükəsizliyini təmin etmək vacibdir. Yanğın baş verən təqdirdə, dərhal təcili xidmətlərə müraciət edin və onları xəbərdar edin. Ayrıca, ətraf mühitə zərər verməmək üçün fişəngləri yalnız təhlükəsiz və təmiz sahələrdə istifadə edin. Qonşularınızla təhlükəsizlik tədbirləri barədə müzakirə aparın və qarşılıqlı yardım göstərin. Hər bir evdə yanğınsöndürən və təcili yardım vasitələrinin mövcud olduğundan əmin olun. Bütün ailə üzvləri ilə yanğın zamanı nə etməli olduqlarını əvvəlcədən müzakirə edin. Qapı və pəncərələrin düzgün bağlandığından əmin olun, xüsusilə küləkli havalarda. Yalnız peşəkar şəxslərə fişəng və digər pirotexniki maddələri istifadə etməyə icazə verin. Bayram şənlikləri zamanı təhlükəsizliyi təmin etmək hər birimizin məsuliyyətidir. Yeni ilin gəlişi ilə hər kəsin təhlükəsiz və əyləncəli bir bayram keçirməsini arzulayıram. Unutmayın, təhlükəsizliyinizi təmin etmək üçün hər zaman ehtiyatlı olun".

***Ayşən Vəli***



**Elçin Bayramlı**

# Təhsil sektoru ilə əmək bazarı arasında uyğunsuzluq: səbəb nədir?

Dövlət İmtahan Mərkəzinin (DİM) Direktorlar Şurasının sədri Məleykə Abbaszadə hər il 9-cu sinifdən kifayət qədər şagirdin təhsilini sona qədər davam etdirmək istəmədiyini və təhsilini bitirmədən əmək bazarına atıldığını deyib və əlavə edib ki, bu da şagirdlərin sayının azaldılmasına gətirib çıxarır. O, bildirib ki, mərkəzin saytında xüsusi testlər hazırlanıb və bu testlərin nəticələrinə uyğun olaraq proqram şagirdə öz əmək sahəsini müəyyənləşdirməyə kömək edir. Bəli məlumdur ki, bu gün əksəriyyət öz ixtisasına uyğun gəlməyən sahələrdə işləyir. Kim harada gəldi nə iş tapırsa, orada işləyir, hansısa kursun təlimlərində və ya praktikada öyrənir. Ali məktəblər bir tərəfdən 100 minlərlə insanı əmək bazarına buraxır və çoxu da öz ixtisası üzrə iş tapmır.

İnsanların hansı sahəyə potensialı varsa, onlar bunu bilir, araşdırır və valideynlər də o sahədə uşaqlarının təhsilinə kömək edirlər. Bundan sonra da əmək bazarında həmin sahələr üzrə iş tapa bilənlər işləyir, tapa bilməyənlər isə istənilən bir sahədə iş tapıb işləyir.

Hansısa müxtəlif eksperimentlər bir o qədər ciddi nəticə vermir və Azərbaycan psixologiyasında, xüsusilə ölkənin real şəraitindəki mühitdə belə şeylər yaramır. Hər şey bazara uyğun, reallığa uyğun, özü avtomatik tənzimlənir.

Ölkənin əmək bazarında məşğulluq məsələləri, iqtisadi aktivlik hansı səviyyədədirsə, o dərəcədə də işçi, mütəxəssis ehtiyacı olacaq. Deyək ki, deyilən məsələlər düzgün şəkildə yönəldildi, 20 min nəfər mütəxəssis buraxıldı. Bazarda isə 200 nəfərə ehtiyac var. Bəs digərləri nə etməlidir? Bu DİM-in, ya da ETN-in həll edə biləcəyi məsələ deyil. Ona görə də, belə hoqqabazlıqlardansa, yaxşı olar ki, bu orqanlar məktəblərdə yüksək səviyyədə təhsil və ədalətli imtahan sistemini təşkil etsinlər.

İmtahanların keyfiyyətli, şəffaf keçirilməsini, həmçinin şagirdlərin psixometrik yox, psixoloji müayinəsini təşkil etsinlər, çünki bu gün məktəblər biabırçı vəziyyətdədir. Özbaşınalıq, psixoloji problemli şagirdlər, kriminal hərəkətlər baş alıb gedir. Bu kimi ciddi məsələlər həllini tapmalıdır. Məktəblərdən alınan tərbiyə funksiyası, müəllimlərin tapdalanmış hüquqları bərpa olunmalıdır.

Məktəblərdə yuxarı siniflər təmayül sistemi ilə davam etsə, o zaman şagirdlər öz istedadlarının hansı sahəyə uyğun olduğunu görə biləcək və bu da onların həmin sahələri əvvəlcədən seçib orada irəliləyiş etməsinə, həmçinin rahat şəkildə ixtisas seçimində də kömək edəcək. Üstəlik, heç də hamı ali təhsil almalı deyil, uşaqları peşə təhsilinə yönəltmək lazımdır. Bu gün məktəblərdə təhsilin keyfiyyətsizliyi ilə bərabər tərbiyə də aşağı vəziyyətdədir. Çox təəssüf ki, məktəblərdə uşaqlar özbaşına buraxılıb. Təhsilin keyfiyyətində fundamental dəyişiklik olmalıdır, təhsil yükü mümkün qədər azaldılmalı və konkret təyinat üzrə yönəldilməlidir. Bu gün yuxarı siniflərdə ümumiyyətlə, dərslər keçirilmir. Son dövrlər təhsil sistemində aparılan bütün proseslər formaldır və heç bir mahiyyət daşımır.

Bir çox məktəblərin adi şəraitləri belə yoxdur. Bu yaxınlarda Tovuz rayonunun kəndlərindən birində baş vermiş hadisə bir daha buna sübutdur. Xarabalıq şəraitindəki bir məktəb qədimdən qalma soba ilə qızdırılır. 60-a yaxın uşaq tüstüdən zəhərlənib, xoşbəxtlikdən kütləvi ölüm hadisəsi baş verməyib.

İldə təhsilə dövlət büdcəsindən 5 milyard manat vəsait ayrılır. Məktəblər normal tədris ilə, daha sonra maddi-texniki baza, vəsait, avadanlıqlar və müxtəlif laboratoriyalar ilə təmin olunmalıdır. SSRİ dövründə məktəblərdə fizika, kimiya, biologiya kabinetləri, bir çox cihazlar və avadanlıqlar var idi, indi bunların çoxu məhv olub gedib.

Uşaqların psixi və fiziki sağlamlıqları təmin edilməlidir. Təhsildən də vacib tərbiyədir, əvvəl insan yetişdirmək lazımdır. Məktəblərdə ciddi nizam-intizam qaydalarını tətbiq edilməlik, təhsilin keyfiyyəti artırılmalı, müəllimlər öz ixtisasları üzrə düzgün formalaşdırılmalıdır.

# İncə xəstəlik: tuberkulyoz təhlükəsi

***Keçmişdə ona incə xəstəlik adı verilib, çünki orqanizmdə inkişafı incə gedir, bəzən ayılırsan ki, ciddi tuberkulyoz xəstəliyi daşıyıcısısan. Xalq arasında vərəm olaraq da bilinən tuberkulyoz xəstəliyi, "Mycobacterium tuberculosis" adlı bakteriyanın xaricdən bədənə daxil olduğu zaman baş verən yoluxucu xəstəlikdir. Əsasən tənəffüs yollarından keçən bu bakteriya insanın ağciyərlərinə yayılır və sonradan ağciyərlərdə iltihaba səbəb olur. Vərəmə ən çox yoluxmuş orqan ağciyər kimi tanınır. Bu vəziyyətin səbəbi mikrobların bədənə giriş nöqtəsinin ağciyərlər olmasıdır.***



Lakin bəzi hallarda vərəm çöpləri ağciyərlərdən keçərək limfa sistemi və qan dövranı vasitəsilə orqanizmin digər orqan və ya toxumalarına keçə bilir. Beləliklə, mikrobun insanın limfa düyünlərinə, böyrəklərinə, sümüklərinə və hətta beyninə yayılma riski var. Xəstəliyin yayıldığı orqan və toxumalarda ciddi iltihablar baş verir və disfunksiya yaranır.

Bu gün inkişaf edən müalicə üsulları sayəsində, keçmişlə müqayisədə ölüm nisbətlərində azalma olsa da, dünyada təxminən 8,5 milyon insan hələ də vərəmdən əziyyət çəkir və hər il təxminən 2 milyon insan bu xəstəlikdən ölür. Buna görə də vərəm hələ də ciddi sağlamlıq problemi olaraq qalır.





## Vərəmin risk faktorları hansılardır?

"Mycobacterium tuberculosis" adlı virusun orqanizmə verəcəyi zərər və xəstəliyin inkişaf ehtimalı insanın bədəninin müqavimətindən asılı olaraq dəyişir. İmmun sistemi zəif olan insanlarda xəstəliyin təsiri daha güclü ola bilsə də, immun sistemi güclü olan insanlar ciddi simptomlar yaşamadan xəstəlikdən sağalırlar. İmmunitet sistemi və bədən müqaviməti tam formalaşmamış 5 yaşdan kiçik uşaqlar, 65 yaşdan yuxarı yaşlı şəxslər, müxtəlif dərmanlar və ya müalicə üsulları səbəbiylə immun sistemi zəifləmiş şəxslər, bədənin müqavimətinin normadan çox az olmasına səbəb olan xəstəlikləri olan şəxslər, məsələn, QİÇS, şəkərli diabet, xroniki böyrək və ya qaraciyər xəstəlikləri və ya xərçəng kimi xəstəlikləri olanlar, orqan transplantasiyası keçirmiş şəxslər vərəmlə mübarizədə gücsüz ola bilərlər.

## Vərəm nədən yaranır?

Vərəm bu gün də çox ciddi xəstəlik olaraq qalmaqdadır. Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) paylaşdığı məlumatlara görə, dünyada xəstələrin təxminən 2,5%-i vərəm xəstələridir. Bununla belə, "qarşısı alına bilən" kateqoriyaya daxil olan ölümlərin təxminən 25%-i vərəm xəstələrində baş verir. Xəstəlik dünyanın bütün ölkələrində müşahidə olunsa da, Cənub-Şərqi Asiya və Afrikada daha çox rast gəlinir.

Xəstəliyin əsas səbəbi hələ məlum olmasa da, müxtəlif ekoloji amillərin təsiri var. Bundan əlavə, QİÇS kimi immunitet sistemini zəifldən xəstəliklərin artım sürəti vərəm xəstəliyinin artım sürəti ilə düz mütənasibdir. Urbanizasiyanın yüksək olduğu və insanların sıx yaşadığı bölgələrdə QİÇS-in nisbəti ilə yanaşı vərəmin də nisbəti artır. Xəstəliyin ən çox yayıldığı bölgə Afrikadır. Bu bölgənin ən əhəmiyyətli xüsusiyyəti dünyada QİÇS-in ən çox görüldüyü bölgə olmasıdır. Odur ki, QİÇS və buna bənzər immunsupressiv xəstəlikləri olan insanlarda və ya anadangəlmə səbəblərdən (yaxud dərman istifadəsi və s.) immun sistemi zəif olan insanlarda xəstəliyin inkişaf riski xeyli yüksəkdir.

## Əgər 20 gündən çox öskürürsünüzsə...

Vərəm əlamətlərinin meydana çıxması insanın immun vəziyyətindən asılı olaraq dəyişir. Əslində, bədən müqaviməti yüksək olan insanlarda xəstəlik ümumiyyətlə aktivləşmir, orqanizm onu özü dəf edə bilir. Ancaq müxtəlif səbəblərdən bədənin müqaviməti azalmış insanlarda xəstəlik aktivləşə bilər. Vərəm simptomları adətən yüngül gedişlə başlayır. Xəstəlik ümumiyyətlə ağciyərlərə təsir etsə də, vəziyyətdən asılı olaraq digər orqan və toxumaları da tuta bilər. Buna görə də, insanın yaşayacağı simptomlar virusun yayıldığı orqandan asılı olaraq dəyişə bilər.

Erkən vərəm simptomları təxminən 20 gün davam edən və keçməyən öskürək, adətən öskürəklə davam edən və bir müddət sonra müşahidə edilən qanlı bəlğəm, zəiflik və daimi yorğunluq, baş ağrısı və yüksək temperatur, iştahasızlıq və nəticədə arıqlamaq, mədə ağrısı, sinə və kürəkdə ağrı, limfa düyünlərinin uzunmüddətli şişkinliyi, həmçinin boyun nahiyəsində şişkinlik, oynaqlarda və ya sümüklərdə davamlı ağrıdır.




Xəstəliyin sonrakı mərhələlərində birinci mərhələnin simptomları kəskinləşir. Xəstə təngnəfəslik və səs boğulma kimi simptomları da hiss etməyə başlayır. Bu simptomlar aktiv vərəm simptomları olan insanlara aiddir. Aktiv vərəm, bir insanın bakteriya ilə yoluxduğu və müxtəlif simptomlar inkişaf etdirə və virusu digər insanlara ötürə biləcəyi bir vəziyyətdir.

Gizli vərəmli insanlarda xəstəliyin heç bir əlaməti olmur. İnsanın bədənində bu xəstəliyə səbəb olan bakteriyalar yarandıqda güclü immun sistemi tərəfindən sıxışdırılır və buna görə də orqanizmdə xəstəlik törədicisi olan həmin bakteriyaların çoxalmasının qarşısı alınır. Bu vəziyyətdə insanın səhhətində ciddi simptomlar göstərmir. Gizli vərəm zamanı xəstəliyin başqa bir insana keçmə riski yoxdur.

## Necə müalicə olunmalı?

Vərəmin diaqnostika və müalicəsində səlahiyyətli qurum Ağciyər Xəstəlikləri İnstitutu və Vərəm Dispanserləridir. Bundan əlavə, normal təchizatı olan xəstəxanalarda xəstəliyin diaqnozu və müalicəsi ilə bağlı bütün proseslər həyata keçirilə bilər. Diaqnoz mərhələsində əvvəlcə xəstənin fiziki əlamətləri yoxlanılır. Daha sonra şəxsin bəlğəmində vərəm çöplərini aşkar edən vərəm testi aparılır.

Bu müayinələrlə yanaşı, şəxsin ağciyərlərinin vəziyyətini müəyyən etmək üçün ağciyər rentgenoqrafiyası da aparılır. Xəstəliyin qəti diaqnozunun qoyulması üçün şəxsdən götürülən bəlğəm mikroskopla yoxlanılır. Buna görə də xəstəliyin diaqnozu çətin deyil və cərrahi müdaxilə tələb olunmur. Diaqnozun qoyulmasında ən vacib element mümkün olduğu qədər tez həkimə müraciət edilməsidir.

Bu gün vərəmin müalicəsi üçün müxtəlif üsullar mövcuddur. Xəstəliyə qarşı tibbi müalicə üsulları ilə yanaşı sağlam qidalanma, istirahət və uzun müddətli sanatoriya müalicəsi də çox təsirlidir. Lakin xəstəliyin müalicəsi təkcə bu üsullara həvalə edilmir və dərman istifadəsi də tətbiq edilir. Müalicə prosesində mikrobun həm inkişafının, həm də özünü çoxaltmasının qarşısını almaq üçün dörd müxtəlif növ dərman birlikdə istifadə olunur. Xəstəliyin müalicəsi uzun müddət davam edə bilər. Ümumiyyətlə, müalicənin ilk 2 ayında dərman istifadəsi həddindən artıq ola bilər. Vərəmin müalicəsinin 2-ci ayından sonra adətən insanın vəziyyəti yaxşılaşır və nəticədə yazılan dərmanların sayı azalır.




Xəstə ona yazılan dərmanları mütəmadi və vaxtında qəbul etməlidir. Bu yolla xəstəliyin irəliləmə sürəti azalır, simptomlar yüngülləşir və başqa insanlara keçmə ehtimalı azalır. Müalicə müddəti 6 aydan az deyil. Mikrobun bədəndən uzaqlaşdırılması bəzən daha qısa vaxt tələb etsə də, infeksiyanın hələ də bədəndə qalma riski var. Buna görə də vərəmin müalicəsində dərmanların müntəzəm istifadəsi çox vacibdir. Çünki dərman istifadəsinin kəsildiyi hallarda xəstəliyin sağalmama ehtimalı yüksəkdir. Əslində, müalicəyə laqeyd yanaşmayan insanlarda xəstəliyin sağalma faizi kifayət qədər yüksəkdir.

Xəstəliyin müalicəsi adətən ambulator şəraitdə aparılır və şəxsin xəstəxanaya yerləşdirilməsinə ehtiyac olmur. Ancaq xəstənin vəziyyətindən asılı olaraq xəstəxanaya yerləşdirmə mümkün ola bilər. Nəfəs darlığı olan, daim qanlı bəlğəm ifraz edən, dərman müalicəsini normal yerinə yetirməyən, vərəmlə yanaşı ciddi xəstəlikləri olan insanlar xəstəxanaya yerləşdirilə bilər.

***Lalə Mehralı***

# “Minimum pensiyada 3 dəfəyədək artıma nail olunub”

**""Azərbaycan sosial dövlətdir. Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, onun problemləri, onun təhlükəsizliyi, onun xoşbəxtliyi dayanır”. Ölkə Prezidentinin bu sözləri onun tapşırıqları əsasında ardıcıl olaraq həyata keçirilən, ölkə vətəndaşlarının rifahının təminatında önəmli rol oynayan sosial islahatlarda aydın və əməli təsdiqini tapır”. Bu sözləri SİA-ya açıqlamasında deputat Jalə Əliyeva deyib. O bildirib ki, Prezident İlham Əliyevin Fərman və Sərəncamları əsasında xüsusilə 2018-2024-cü illərdə 4 milyondan çox vətəndaşı əhatə edən 4 sosial islahat paketi icra olunub: ”Bu 4 sosial islahat paketi üçün illik əsasda əlavə olaraq 7 milyard manat ayrılıb.**

Nəticədə 2018-2024-cü illərdə minimum pensiyada 2,5 dəfə, orta aylıq pensiya 2,4 dəfə, müavinət və təqaüd ödənişlərində 5 dəfə, ünvanlı yardımın orta aylıq məbləğində 2,7 dəfə, minimum əməkhaqqında 2,7 dəfə,





orta aylıq əməkhaqqında 2 dəfəyədək, median əməkhaqqında 2,2 dəfə, əmək haqqı fondunda 3 dəfə artım baş verib. Həmçinin son 6 illik dövrdə əmək müqavilələrinin sayı 600 mindən çox (50 faizədək) artıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı yeni ”Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində tədbirlərin davam etdirilməsi haqqında” 23 dekabr 2024-cü il tarixli Sərəncam dövlət başçısının siyasətinin mərkəzində vətəndaş rifahının təminatı prinsipinin dayandığını və bu məqsədlə aparılan sosial islahatların uğurla davam etdirildiyini bir daha göstərir.

Yeni Sərəncama əsasən 2025-ci il yanvarın 1-dən ölkəmizdə minimum aylıq əməkhaqqının məbləği 345 manatdan 16 faiz artımla 400 manata, 2025-ci il fevralın 1-dən əmək pensiyasının minimum məbləği 280 manatdan 14,3 faiz artımla 320 manata çatdırılacaq. Bu artımlarla birgə artıq 2018-ci ilin əvvəlindən minimum aylıq əməkhaqqında 3,1 dəfə, minimum pensiyada 3 dəfəyədək artıma nail olunub. 2018-2024-cü illərdə müavinət və təqaüd ödənişlərində isə 5 dəfə artım baş verib və göründüyü kimi, bu artım dinamikası gələn il də davam edəcək”.

”Həmçinin, Sərəncamla Nazirlər Kabineti dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə aylıq maaşların minimum aylıq əməkhaqqının artırılmış yeni məbləğinə uyğunlaşdırılmasını təmin edəcək.

Sosial, elm, təhsil, səhiyyə, mədəniyyət, gənclər, idman, kənd təsərrüfatı, ekologiya, ətraf mühitin mühafizəsi, mənzil-kommunal, nəqliyyat, rabitə, meliorasiya, su təsərrüfatı və s. üzrə 19 pillədən ibarət Vahid Tarif Cədvəlinin ilk pilləsindəki maaş 400 manata çatdırılmaqla, digər pillələr üzrə maaşlarda da buna uyğun artımlar tətbiq ediləcək.

Yeni Sərəncamla icrasına başlanan növbəti sosial islahatlar paketi 3 milyon insanı əhatə edəcək və onlara yönələn əməkhaqqı, pensiya, müavinət və təqaüdlər artırılacaq. Həmin artımlar üçün illik əlavə olaraq 1,4 milyard manat ayrılacaq. Göründüyü kimi, bütün bu sadaladıqlarımız Azərbaycanda insan amilini, vətəndaşların rifahını hədəfləyən, şəxsən ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və müəllifliyi ilə həyata keçirilən dövlət siyasətinin bariz nümunəsidir” - deyə o, əlavə edib.

***Söylü Ağazadə***



# Cəmil Həsənli “Əmək pensiyaları haqqında” qanunun nədən bəhs etdiyini bilmirsə...

Bu gün nəzarətsiz zona hesab olunan sosial şəbəkələrdə müxtəlif xarakterli və düşüncədə olan istifadəçilərin statuslarına və video paylaşımlarına rast gəlmək olar. Bəzən elə əcaib-qəraib statuslar, rüsvayçı videolar paylaşırlar ki, bir anlıq düşünürsən ki, bu məxluqların nə ağılları, nə də yiyələri yoxdur, öyüd-nəsihət verənləri, yol göstərənləri də mövcud deyil. Diqqətçəkən məqam ondan ibarətdir ki, dilinə yiyəlik etməyən, qələminə gücü çatmayanlar sırasında cəmiyyətdə demaqoqluqları ilə ad çıxartmış, bununla belə ara-sıra özlərini siyasətçi olaraq təqdim edən siyasi partiya yetkililəri də var. Siyahıda AXCP sədri Əli Kərimlinin, Milli Şuranın rəhbəri Cəmil Həsənlinin və onların trol dəstəsinin yer tutduğunu desək səhv etmərik. Çünki bu məxluqlar işsiz-gücsüz məxluqi avaralar olduqlarından günlərini sosial şəbəkələrdə veyillənməklə keçirlər. Yazırlar və paylaşırlar, iddialar irəli sürürlər ki, guya çox şey onların arzu etdiyi və istəklərinə uyğun deyil. Milli Şuranın sədri Cəmil Həsənli ixtisasca tarixçi olsa da, bilmədi və başa düşmədiyi mövzularda statuslar paylaşır. Məsələn C.Həsənli iqtisadi təhlillər aparıb, sosioloq və psixoloq kimi şərhlər yazır.

## Dağılasan a dünya, Cəmil Həsənli indi də iqtisadi təhlillər aparır

Cəmil Həsənli ona verilən növbəti qonorardan cuşa gəlib sosial şəbəkə hesabında



pensiya təminatından, pensiya yaşının artırılmasından giley güzar xarakterli status yazıb. İddia edir ki, guya pensiya yaşının artırılması insanların maddi-rifah halına mənfi təsirlər göstərir. Onun təklifinə görə, pensiya yaşı azaldılmalı və pensiya siyasətində dəyişikliklər olunmalıdır. Ancaq anlamır ki, beynəlxalq standartlara görə, pensiya yaşı orta yaş həddi əsasında müəyyən olunur. Əli Kərimlinin, Cəmil Həsənlinin və digər ağzıgöyçəklərin çox zaman misal olaraq, yaşayışlarından və iqtisadi təminatlarından bəh-bəhlə danışdıqları Avropa və ABŞ-da orta ömür 70-75 ildir. Pensiya təminatı da ABŞ və Avropa ölkələrində 66- 68 yaş müəyyən edilib. Region ölkələrində pensiya yaşı 65-68 yaş həddində müəyyənləşib. Azərbaycanda isə pensiya yaşı 65 yaş müəyyən edilib. Bu da cəmiyyəti qane edir və məmnunluq yaradır. Əgər pensiya yaşı azaldılarsa, o zaman bir sıra dövlət və qeyri-dövlət idarə, müəssisə və təşkilatlarda çalışan işçilər qanunvericiliyə əsasən işindən azad edilməlidir. Bu da həmin sahədə boşluqların yaranmasına və təcrübəli mütəxəssislərin çatışmazlığına gətirib çıxara bilər. Nərə almaq lazımdır ki, qanuna görə, müxtəlif sahələrdə çalışan işçilər üçün müxtəlif son yaş həddi müəyyən edilib. Belə ki, Konstitusiya məhkəməsi hakimləri üçün 70, Ali məhkəmə hakimləri üçün 68, digər məhkəmə hakimləri üçün isə 66 yaş müəyyən edilib. Prokurorluq və Daxili işlər orqanlarında xidmətkeçmə barədə qanunvericiliyə əsasən polis general polkovniki olaraq bu son yaş həddi 65 yaş sayılır. Ədliyyə orqanlarında bu 60 yaş müəyyənləşib, bununla belə 5 ilədək uzadıla bilər.

## Milli Şuranın sədri ”Əmək pensiyaları haqqında” qanunu oxumadan təhlillər aparır

Hazırkı məqamda pensiya yaşının artırılması yaşlı insanların iş fəaliyyətinin davam etdirilməsinə imkanlar yaradır. Həm də ömrün uzanması və sağlamlıqları da pensiya yaşının artırılmasını şərtləndirən amillərdən sayılır. Digər tərəfdən kimsə vaxtından əvvəl pensiyaya çıxmaq istəyirsə, bu halda qanun ona bu imtiyazı verir. Yəni əgər qanunvericiliyə əsasən pensiya fondu təmin edilibsə, şəxs pensiya yaşından bir neçə ilə əvvəl pensiyaya çıxa bilər. Hökumət hər bir ailənin qayğısına qalır və qanuna istinad etməklə insanlara diqqət göstərir. Qanuna görə, vəfat etmiş şəxsin 15 yaşından vəfat yaşına qədər keçən hər il üçün 4 ay stajı olubsa, mərhumun ata-anası, ər-arvadı 65 yaşına çatdıqda, ailə başçısını itirməyə görə pensiya almaq hüququna malikdir. Ailə başçısının ölümü nəticəsində zərərçəkmiş 60 yaşına çatmış qadınlar və 65 yaşına çatmış ailə üzvü olan kişilərə ömürlük pensiya təminatı müəyyən olunur. C.Həsənli bu sadalanları və qeyd olunanları bilmirsə, buyurub, ”Əmək pensiyaları haqqında” qanunu bir daha nəzər yetirsin. Təbii ki, qanunu oxumaqda maraqlı olmayacaq. Çünki bu onun üçün vaxt itkisi, həm də yanlış məlumat bazasının alt-üst olması deməkdir. Ona görə də ona təqdim oluna tezislər əsasında boş-boş təhlillərini və mənasız şərhlərini davam etdirir. Belə siyasətçilərə nə deyəsən? Vay ona inanıb, ətrafına toplaşan trolların halına.

***İLHAM ƏLİYEV***

# Tanrıya açıq məktub-4-cü hissə




**(fəlsəfi esse)**

*Əvvəli ötən saylarımızda*

Həşəmətli Tanrım. Artıq bu planetdə Sənin yaratdığın 4 müqəddəs ünsürdən, yəni, Oddan, Torpaqdan, Sudan və Havadan əsər-əlamət belə qalmayıb. Torpaq kimyəvi kübrələrlə zəhərlənib, bəşəriyyət hər il 6 milyon hektar yararlı torpağı itirir. Süni qida yeməkdən insanlar lap süniləşiblər. Yemək bir yana, su da içiləsi deyil. Su mənbələri murdar tullantılarla çirklənib, 1 milyard yarım adam içməli su tapa bilmir.

Havanın da tərkibi dəyişib, havada zəhərli maddələrin həcmi sürətlə artır. Hər il kimyəvi zavodların və avtomaşınların atmosferə buraxdığı milyardlarla ton zəhərli maddə ilə nəfəs alırıq. Oddan da ki, kütləvi qırğın silahları üçün istifadə edilir.

Bunlar bir yana qalsın, nə yeraltı sərvətlər, nə də yerüstü sərvətlər insanlar arasında düzgün bölünmür. 5-10 nəfər lotu yiyələnib bu sərvətlərə talayır, camaat isə qalır pis vəziyyətdə. Yerin üstü cəhənnəmə, artıq altını da xaraba qoyublar. Adını faydalı qazıntı qoyub, bərpa olunmayan mineralları vəhşicəsinə sorub çıxarırlar və bununla da planetin kimyəvi balansı pozulur. Nəticədə dəhşətli təbii fəlakətlər baş verir.

Bu planetdə canlıların yaşayışını təmin etmək, planeti yad səma cismlərindən və Günəş radiasiyasından qorumaq üçün yaratdığın ozon qatı var ha, bax bəşər oğlu onu da artıq "həll" eləyib. İndi də əl-ayağa düşüblər ki, bəs nə edək, necə eləyək. Ekoloqların dediyini vecinə alan kimdi? Təbii fəlakət olan kimi günahı boyunlarından ataraq, bu Tanrının işidir, deyirlər. Məsələn 1976-cı ildə ABŞ-ın Nevada ştatında həyata keçirdiyi güclü yeraltı nüvə partlayışından 3-cə dəqiqə sonra, Qvatemalada dəhşətli zəlzələ baş vermədimi? Zəlzələ demişkən, artıq insan oğlu zəlzələni özü "təşkil" edir və siyasi məqsədə uyğun şəkildə lazımi ölkələrdə tətbiq edir.

Beləcə, insan fəaliyyətinin əkstəsiri olan təbii fəlakətlər son 20 ildə 4 milyon insanı məhv edib, 1 milyard yarım adamı evsiz-eşiksiz qoyub. Amma hələ də bəşər oğlunda insanın təbiət üzərinə qələbəsi kontekstində utopik eyforiyalar hökm sürməkdədir

Ey Tükənməz Sərvət və Şöhrət Sahibi, yerin altı-üstü bir yana qalsın, bəndələrin indi də göyə əl atıblar. Marsda, Ayda torpaq satana bax, atmosferi süni peyklə doldurana bax, kosmosa turist aparana bax. Bir azdan digər planetləri də xaraba qoyacaqlar. Sözlərimi qəribçiliyə salma, Sən axı yaratdığını məndən yaxşı tanıyırsan. Amma mənim əsas məqsədim planetdə baş verən bu həngamələri xəbərləmək deyil.

Mənim özümün də səbəbini bilmək istədiyim bir neçə məsələ var, hansı ki, bir çox din xadimləri bu sualların önündə gözünü döyə-döyə qalırlar. Ona görə də, Səbrli Tanrım, 70 məsələ haqda Sənə 7-cə ədəd sualım var. Beləliklə suallar belədir:

1. Sən ki hər şeyi qabaqcadan bilirsən, bəs o zaman bu sifətdə dünyanı və bu sifətdə insanı niyə yaradıb ağrımaz başını bəlaya, bizi isə zülümə saldın?

2. Dünyanı və insanı yaradanda "hamıya nemətlərimdən hər şey çatar" demişdin, bəs acgöz insan oğlunun mal və torpaq uğrunda aparılan kütləvi qırğınlara baxmayaraq sürətlə artacağını öncədən görməmişdinmi, hər il milyonlarla insanın susuzluqdan, aclıqdan, istidən və soyuqdan öləcəyini təxmin etməmişdinmi?

3. İnsan oglunun yolundan sapdığını görəndə "qoltuğuna Kitab verib" dalbadal göndərdiyin elçilərini niyə qorumadın, Zərdüşt Peyğəmbər təhqir edilərək öldürüləndə haradaydın, İsa Peyğəmbər çarmıxa çəkiləndə niyə köməyinə çatmadın, Məhəmməd Peyğəmbər daşa basılanda niyə müdaxilə etmədin?

4. Bəzi Müqəddəs Kitablarına "lazımi" dəyişikliklər və düzəlişlər, ixtisar və əlavələr ediləndə, din siyasi oyunlar və hakimiyyət davası üçün alətə çevriləndə, adlarını ruhani rəhbər qoyanlar məzlum xalqın ac vaxtı qarınlarını və xəzinələrini yoğunladanda yatmışdınmı?

5. Haqsız Haqlıya, vicdansız Vicdanlıya, namərd Mərdə, kafir Möminə, güclü Gücsüzə, kiçik Böyüyə, nankor Çörəkverəninə, günahlı Günahsıza divan tutanda niyə Haqqı müdafiə etmədin??!

6. Bəzi məscidlərin yasxanaya, bəzi ziyarətgahların nəzir qutusuna döndərilib, bəzi kilsələrdə beş para müqabilində bəndələrin günahlarının əhv edilməsi haqda Sənin adından qəbz verirlər, bəzi sinaqoqlarda ibadət əvəzinə beynəlxalq biznes sövdələşmələri aparılır, görmürsənmi??

7. Məsum və çarəsiz körpələrin aclıqdan ağlamalarına, kasıb və aciz valideynlərin qəhərdən boğulmalarına, günahsızların zindanlarda çürüməlırinə, bəzi ata-anaların övladlar böyüdüb, əvəzində qocalar evində həyatlarının son gününü gözləmələrinə, acizlikdən və çarəsizlikdən edilən intiharlara, savaşlarda günahsız qadın və uşaq qətllərinə və nəhayət bəşəriyyətin faciələrinə və həvəslə yaratdığın dünyanın məhvinə necə dözə bilirsən??!...

Xeyli suallarım qaldı, amma söz vermişdim ki, cəmi 7-cə sual verəcəm, ona görə də qaldım boğula-boğula... Sualların cavablarının istənilən formada qəbuluna hazıram. Xoşbəxtlikdən (əslində bəsbəxtlikdən) bizim hesabımızla XXI əsrdə yaşayırıq və bu səbəbdən də müasir kommunikasiya növlərindən istifadə etmək şərəfinə nail olmuşam. (Məs., telefon, e-mail, messencer və s.) Bundan əlavə mistik əlaqə sistemindən də qəbul etməyə hazıram. (Məs., yuxuda, trans vəziyyətində, hipnoz halında və s.)

Ardı var

***Elçin Bayramlı***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" istiqaməti çərçivəsində hazırlanıb*

# "Bəzi məktəblər birləşdirilə bilər"

*MÜNASİBƏT BİLDİRİLDİ*



"Resursların səmərəli istifadəsini təmin etmək üçün bəzi məktəblər birləşdirilə bilər". Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Elnur Aydın deyib. O bildirib ki, başqa məktəblərlə inteqrasiya oluna və ya şagird sayının az olduğu yerlərdə dərs saatları, müəllim resursları və digər fəaliyyətlər optimallaşdırıla bilər: "Rasionallaşdırma təhsil sistemində resursların daha səmərəli və effektiv istifadəsini təmin etmək üçün həyata keçirilən tədbirlərdir. Şagird sayı az olan məktəblərdə təhsil keyfiyyəti çox vaxt aşağı olur. Bu cür məktəbdə müxtəlif ixtisaslı müəllimləri təmin etmək çətinləşir.mŞagird sayı çox az olan məktəblərdə müəllim, maddi-texniki baza və digər resursların istifadəsi qeyri-effektiv olur.



Rasionallaşdırma həm də təhsil sisteminin daha effektiv və resurslardan daha yaxşı istifadə edilən şəkildə işləməsini təmin etmək üçün atılan əhəmiyyətli bir addımdır. Rasionallaşdırma ilə bu resurslar daha böyük və effektiv məktəblərə yönəldilir. Şagirdlər daha böyük məktəblərə köçürülərək daha yaxşı təhsil ala bilərlər. Rasionallaşdırılmış məktəblər daha yaxşı infrastruktura və texnoloji imkanlara malik olur. Bu da şagirdlər üçün müasir təhsil mühitini təmin edir.

Sosial-iqtisadi həyatın müasirləşdirilməsində təhsilin rolu təkcə təhsilalanın qazandığı bilik və bacarıqların iqtisadi amilə çevrilməsi ilə məhdudlaşmır. Təhsil prosesində əldə olunan bilik və bacarıqlar, həmçinin etik-əxlaqi norma və dəyərlər hər bir təhsilalanın cəmiyyətin layiqli üzvü olması üçün lazımi şərait yaradır, onu biliyi və etik davranışı sayəsində örnək ola biləcək həmkara, nümunəvi ailə üzvünə və vətəndaşa çevirir. Təhsilin keyfiyyətinin yaxşılaşdırılması üçün təhsili idarəetmə sisteminin yenidən qurulması, bu sahədə insan resurslarının inkişaf etdirilməsi və müəllim peşəsinin nüfuzunun artırılması zəruridir".

***Söylü Ağazadə***

# Bəşər Əsədin həyat yoldaşında xərçəng diaqnozu qoyulub



...Suriyanın keçmiş prezidenti Bəşər Əsədin həyat yoldaşı Əsma Əsəd qan xərçəngi olan kəskin miyeloid leykoz xəstəliyinin residivi yaşayır. SİA-nın məlumatına görə, bu barədə "The Telegraph" mənbələrə istinadən yazıb. Nəşrin qeyd etdiyi kimi, həkimlər onun xəstəliyi sağaltmaq şansını təxminən 50/50 olaraq qiymətləndirirlər.

...Leykemiya geri qayıdanda dəhşətli olur. Son bir neçə həftə ərzində onun vəziyyəti 50/50 olub. Bunu Suriyanın keçmiş prezidentinin Moskvadakı ailəsi ilə əlaqə saxlayan mənbə qəzetə bildirib. Əsmanın ona yoluxucu xəstəliklərin keçməsinin qarşısını almaq üçün ayrıca steril otaqda təcrid olunduğu bildirilir. Əsədin həyat yoldaşına başqa insanlarla eyni otaqda olmaq qadağandır, lakin atası Fəvaz əl-Əxras bir müddət Moskvada ona baxıb. Mənbələrin dediyinə görə, kişinin "ürəyi qırılıb". Suriyanın keçmiş prezidentinin həyat yoldaşı ən azı 2024-cü ilin may ayından leykemiyadan müalicə alır.

Əsma Əsəd rejiminin devrilməsindən həftələr əvvəl Moskvaya gəlib və Rusiyanın paytaxtında xərçəng xəstəliyinin müalicəsinə başlayıb. Bildirilir ki, ona 2018-ci ildə erkən mərhələdə döş xərçəngi diaqnozu qoyulub, lakin 2019-cu ilin yanvarında şiş çıxarılıb. Bundan əvvəl mediada Əsma Əsədin Moskvadakı həyatdan narazı olduğunu və boşanmaq üçün məhkəməyə müraciət etdiyi barədə məlumatlar yayılıb. Qeyd olunur ki, Əsma guya Böyük Britaniyadakı vətəninə qayıtmaq niyyətindədir.

***Əli Babayev***

SON SƏHİFƏ

# SƏS

26 dekabr
2024-cü il

# "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ
ABUNƏ OLMAQ İSTƏYƏNLƏR
AŞAĞIDAKI YAYIM
ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ
SAXLAYA BİLƏRLƏR

1. **Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544**
2. **Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694**
3. **Səma Mətbuat Yayım – 0125940252, 0503336969**
4. **Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002**
5. **Qaya Mətbuat yayım – 0125667780, 0502352343**
6. **Qasid Mətbuat Yayım – 0124931406, 0124938343**
7. **F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898**
8. **Ziya LTD – 0124977696, 0503067744**

**1 nüsxə 1 aylığı 13.20 AZN**
**6 aylıq 79.20 AZN**
**1 illik 158.40 AZN**

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# "TikTok"da çirkli pullar necə "yuyulur"?



*EKSPERT İZAH ETDİ*

"Hansısa kriptovalyutalar üzərindən illeqal yollarla əldə edilmiş, banklarda dondurulmuş hesablardan oğurlanmış, vergidən və dövlət qurumlarının nəzarətindən yayınmaq üçün müxtəlif nağdlaşdırma yolu ilə əldə edilən pullar çirkli pullar sayılır". Bu sözləri SİA-ya açıqlamasında İnformasiya Texnologiyaları Elmləri üzrə ekspert Fərrux Rəcəbli deyib. Onun sözlərinə görə, çirkli pulları istifadə edə bilmək üçün onlar təmizlənməlidir: "Təmizlənməyin yolları isə çoxdur. Bu gün dövlət qurumları tərəfindən məsələyə çox ciddi nəzarət var və araşdırılır. Buna görə də çirkli pulları əvvəlki kimi rahat təmizləmək mümkün deyil. Bunu təmizləyən insanlar diqqət çəkməyən və daha sadə üsul axtarırlar. Bunun üçün də ən sadə üsul sosial şəbəkələr, əsas da "TikTok"dur.

Bəs, "TikTok" üzərindən çirkli pullar necə təmizlənir? Çirkli pula sahib olan insanlar "TikTok"da kəşfiyyata çıxırlar və orada daha çox gündəmdə olan, diqqət çəkən bloggerləri, canlı yayımları, şouları araşdırıb tapır və onlarla ünsiyyətə keçirlər. Onlara iş kimi təklif edirlər ki, biz sənin təşkil etdiyin canlı yayımlara, oyunlara və şoulara qatılıb sənə dəstək verəcəyik, sənə dəstək məqsədilə göstərdiyimiz hədiyyələri nağdlaşdıracaksan. Onların aralarında razılaşdırdıqları faiz yolu ilə pul bölünür. Bu yolla da pulu təmizləmiş olurlar. Burada itki də böyük olur. Çünki pulun 60 faizini "TikTok" özü götürür.

90 faiz hallarda həmin şəxslərə bu pulun çirkli olduğu da deyilmir. Bəzən bundan xəbərdar olaraq edənlər də var. Bu gün bir canlı yayımlar və şoular təşkil olunur ki, burada gələn bakiyənin məbləği həddindən artıq yüksək olur. Canlı yayımlara dayanmadan, ard-arda nə qədər hədiyyələr göndərilir. İnsan düşünür ki, nə qədər pula sahib olmalısan ki, bu qədər hədiyyə göndərəsən. Bunlar hamısı çirkli pullardır. Çünki heç kim qazancının belə böyük məbləğini kiməsə hədiyyə etməz. Sadəcə "TikTok" üzərindən pulları təmizləyirlər.

Düzdür, bunun başqa yolları da var. Amma nəzarət güclü olduğu üçün bunu edə bilmirlər. Yəni, bu pul nağdlaşdırılsa, onunla alqı-satqı edilsə, kiminsə hesabına köçürülsə avtomatik olaraq bu başa düşülür. Yəni, sistemdə radara düşür və bununla bağlı tədbir görülür. Amma "TikTok"da bu, cəlb etmir. Yəni, hamı kənardan baxır və deyir ki, kimin pulu varsa, dəstək olur. Söhbət böyük dəstəklərdən gedir. Elə fenomen var ki, onun açdığı canlı yayımdan əldə etdiyi pul normal əməkhaqqı alan bir insanın bir illik maaşına bərabərdir".

***Ayşən Vəli***

# 2025-ci ilin dəbi BƏLLİ OLDU

*Modelyer DANIŞDI*





Gündəlik həyatımızda küçədə gəzərkən və ya sosial şəbəkələrdə zaman keçirərkən dəbin cəmiyyət üzərindəki təsirini hiss etməmək mümkün deyil. Dəb sadəcə geyim seçimi deyil, eyni zamanda şəxsiyyətin və mədəniyyətin ifadəsidir. Bəs qarşıdan gələn ildə dəb seçimi necə olacaq? Bununla bağlı moldelyer, dizayner Günay Mirzə SİA-ya açıqlamasında deyib: "Bu sezonda bəylərdə və xanımlarda da forma olaraq geniş geyimlər, geniş paçalar və qollar,ümumiyyətlə rahat paltarlar geyimlər dəbdə olacaq. Rənglərdən qarşıdan gələn il "İlan ili" olduğuna görə yaşıl rəng və yaşılın müxtəlif tonları, qırmızı, bardovu, sumaxı, gümüşü, qəhvəyi tonlar dəbdə olacaq.Yenə də "İlan ili" olduğuna görə parıltılı parçalar, özündən parıltılı biserlər və ayna effekti olan parçalar ilin trendi olacaq.

İnsanlar inanmıram ki, qış sezonunda yay geyimini geyinməklərdə məqsədi seçim etməkdə çətinlik olsun. Fikrimcə, sadəcə olaraq moda nümayişlərinə yaxud da müxtəlif müğənnilərin səhnə geyimlərinə fikir verirlər. Məsələn onlar səhnəyə çıxanda çox yüngül geyim və ayaqlarına isə çəkmə geyinirlər. Bunu insanlar dəb kimi başa düşür, yəqin ki düzgün anlamırlar ki o sadəcə olaraq səhnədə həmin geyimi geyinir və küçədə geyiniləcək paltar deyil. O anda onların gözlərinə stil olaraq gözəl görünür və bunu həyata keçirməyə çalışırlar. Sırf mənim baxışıma görə səhnə geyimini müxtəlif tədbirlərdə və s. normal qarşılamaq olar, amma gündəlik ofis, küçə tərzi geyimlərində bu əlbəttə düzgün deyil".

***X. Piriyeva***

# Bayramqabağı qatarların hərəkətində hansı dəyişikliklər olacaq?



Yeni il bayramında bir çox insan gəzməyə, həmçinin istirahətə rayonlara qatar vasitəsilə gedirlər. Bəs bununla əlaqədar olaraq bayramqabağı qatarların hərəkət rejimində hansısa dəyişikliklər olacaq?

ADY-nin Kommunikasiya departamentinin əməkdaşı Bəxtiyar Hacıyev SİA-ya açıqlamasında bildirib ki, ADY qarşıdan gələn bayram günlərində sərnişin tələbatını təmin etmək məqsədilə 30 dekabr - 5 yanvar tarixlərində rayonlararası (şəhərlərarası) istiqamətlərə əlavə reyslər təyin edib: "30 dekabrda Bakı-Qəbələ-Bakı marşrutu üzrə hər iki istiqamətdə qatar reysləri təşkil ediləcək. 31 dekabrda Bakıdan Qəbələyə, 2 yanvarda isə əks istiqamətdə əlavə reyslər təyin edilib. Həmçinin yanvarın 3-də hər iki istiqamətdə, yəni Bakıdan Qəbələyə və Qəbələdən Bakıya əlavə qatar hərəkətdə olacaq. 4 yanvarda qatar Bakıdan Qəbələyə, 5 yanvarda isə Qəbələdən Bakıya hərəkət edəcək. Bayram günlərində Bakı-Ağstafa-Bakı marşrutu üzrə də əlavə reyslər təyin edilib. Sözügedən reyslər qeyri-iş günü elan edilmiş 30 dekabr - 5 yanvar tarixlərində hər gün olmaqla, həmçinin 28 və 29 dekabr tarixlərində Bakıda 09:15-də, Ağstafadan isə 17:00-da təşkil ediləcək. Bundan əlavə, sərnişinlər bu marşrutlar üzrə ənənəvi reyslərlə hər gün hər iki istiqamətdə səfər edə bilərlər".

***Xeyrənsə***


***Baş redaktor:***
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 2700**